

MART
# YENİ FİKİR

Təsisçi: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR.

18 mart 2025-ci il, cümə №8 (64)


## Naxçıvan Dövlət Universiteti ilə ABŞ-nin Corc Vaşinqton Universiteti ikili diplom üçün ilkin razılıq əldə edib, Əməkdaşlıq Memorandumu imzalayıb

Naxçıvan Dövlət Universitetində Amerika Birləşmiş Ştatlarının tanınmış universitetlərindən Corc Vaşinqton Universiteti ilə ali təhsil ocağı arasında görüş keçirilib. Görüşdə universitetin rektoru Elbrus İsayev və rəhbər heyət, Corc Vaşinqton Universitetinin Təhsil və insan inkişafı fakültəsinin dekanı Maykl Foyer və universitetin proqram direktoru Sevinc Məmmədova iştirak edib.

NDU və Corc Vaşinqton Universiteti arasında magistratura təhsil pilləsi üzrə müzakirələr aparılıb. “Səhiyyənin idarə edilməsi” və digər ixtisaslara dair ikili diplom proqramları, peşəkar inkişaf proqramları, tələbə-müəllim mübadiləsi, ortaq tədqiqatlar, kitabxana bazalarına inteqrasiya, professional təlim proqramları, ortaq seminar və konfransların təşkili və başqa prioritet əməkdaşlıq sahələrinə dair yol xəritəsi barədə ilkin razılığa gəlinib. NDU ilə Corc Vaşinqton Universiteti arasındakı əməkdaşlıq akademik əlaqələrin inkişafı, təhsil sahəsində mübadilə, tərəfdaşlıq imkanlarının genişləndirilməsi və gələcəkdə təhsil liderlərini hazırlamaq məqsədinə hədəflənib.





Görüşdə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulan “Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili” tədbirinin icrası məqsədilə Amerika Birləşmiş Ştatlarının Corc Vaşinqton Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında ikili diplom üçün ilkin razılıq əldə edilib, Əməkdaşlıq Memorandumu imzalanıb.

Əməkdaşlığın icrası və gələcək layihələrin reallaşdırılması məqsədilə hər iki ali təhsil müəssisəsi nəzdində icraya məsul işçi qrupların yaradılmasına qərar verilib.

Sonda rektor Elbrus İsayev Corc Vaşinqton Universitetinin nümayəndələrinə Naxçıvan və universitet haqqında kitablar hədiyyə edib.

**Kifayət Mahmudova**
**Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri**

## “Asan Xidmət” və Naxçıvan Dövlət Universiteti arasında Anlaşma Memorandumu imzalanıb

İmzalanan Anlaşma Memorandumu “Asan Xidmət” və universitet arasında “Universitetlərdə innovasiya mühitinin formalaşdırılması və inkişaf etdirilməsi sahəsində əməkdaşlığa dair” sənəddir.

Öncə rəsmilər startap komandalarının layihələrinin təqdim olunduğu stendlərə baxıblar. Ardınca Dövlət Agentliyi ilə layihəyə yeni qoşulan Naxçıvan Dövlət Universiteti arasında “Universitetlərdə innovasiya mühitinin formalaşdırılması və inkişaf etdirilməsi sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumu imzalanıb.




Anlaşma Memorandumunu Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev imzalayıblar.

Məlumat üçün qeyd edək ki, BP şirkəti və Türkiyənin “Bilişim Vadisi” ilə birgə həyata keçirilən 6 aylıq inkubasiya proqramına ilkin mərhələdə 47 komanda qeydiyyatdan keçib, onlardan 30-u seçilib və 10 komanda proqramda iştirak hüququ qazanıb. Proqram müddətində türkiyəli mütəxəssislər tərəfindən müxtəlif sahələrdə təlimlər təşkil edilib.

2021-ci ilin aprel ayından həyata keçirilən “Gələcək üçün bacarıqlar” layihəsinin məqsədi innovasiya sahəsində kadr potensialının artırılması, təhsildə innovasiya fəaliyyətinin dəstəklənməsi, innovativ ideyalarını inkişaf etdirmək üçün təhsil prosesində tələbələrə dəstək göstərilməsi və onların ölkəmizin texnoloji inkişafında önəmli rol oynayan ixtira sahəsinə yönləndirilməsidir. Bununla bərabər, bağlanılmış Anlaşma Memorandumu əsasında NDU Texnologiyalar Parkı ilə əməkdaşlıq nəzərdə tutulur. Belə ki, Texnologiyalar Parkının gələcək fəaliyyət istiqaməti sahələri içərisində bu Anlaşma Memorandumundan irəli gələn bir sıra məsələlər öz əksini tapmaqdadır.





## Naxçıvan Dövlət Universitetinə yeni təyinat



Nicat Yaqubov Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru təyin edilib. Bununla bağlı Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayev əmr imzalayıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Nicat Yaqubov bundan öncə Naxçıvan Dövlət Universitetinin “Azərbaycan dili və ədəbiyyatı” kafedrasının dosenti, Naxçıvan Dövlət Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışıb.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ İLƏ BAKI SLAVYAN UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB

Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzində Bakı Slavyan Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsinin imzalanması ilə əlaqədar tədbir keçirilib. Tədbirdə NDU-nun rektoru Elbrus İsayev, BSU-nun rektoru Anar Nağıyev, Milli Məclisin deputatı, BSU-nun "Jurnalistika" kafedrasının müdiri Vüqar Rəhimzadə, tərəfdaş universitetlərin nümayəndələri, müəllim və tələbələr iştirak ediblər.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev çıxış edərək Naxçıvan Dövlət Universitetinin



Azərbaycan ali təhsil müəssisələri sırasında öz vizyonu, strategiyası və təşkilati tədbirləri ilə seçildiyini, müasir təhsil sistemi çağırışlarına cavab verən təhsil mühiti formalaşdırdığını qeyd edib. "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi konfransına həmsədrlik etmək və əməkdaşlığa dəvətə görə rektor Elbrus İsayevə təşəkkürünü bildirib. Eyni zamanda tədbirin təşkilini yüksək qiymətləndirərək NDU-nun tələbə kontingentində 20% əcnəbi tələbə olması, ölkə universitetləri arasında ən çox əcnəbi tələbənin məhz burada təhsil almasına diqqət çəkib və inklüzivlik ilə bağlı tədbirə ev sahibliyi etməsinində yerində fəaliyyət olduğunu vurğulayıb. Rektor Anar Nağıyev NDU-nun İnklüziv Təhsil Mərkəzinin açılışının irəlidə daha uğurlu layihələrə yol açacağını əlavə edib. Həmçinin NDU-nun Qərbi Azərbaycana Qayıdış Konsepsiyası çərçivəsində silsilə tədbirlər keçirməsini dövlət siyasətinə uyğun kontekstdə mili-mənəvi dəyərlərin yaşadılması fonunda ölkədə böyük diqqət çəkdiyini qeyd edib. Rektor, ümumilikdə, NDU-da peşəkar və cəlbedici mühitin olduğunu vurğulayıb.

Tədbirdə Milli Məclisin deputatı, BSU-nun Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə birgə əməkdaşlığın hər iki universitetin həyatında əlamətdar olacağını bildirib, BSU və NDU arasında əlaqələrin elm, təhsil və ictimai fəallığın inkişafında yeni fikir və ideyalar qazandıracağını söyləyib. Millət vəkili fikirlərinə NDU-nun ali təhsil ocağı kimi özünəməxsus, yaddaqalan uğurlara imza atdığını və bundan sonra da ölkə təhsilində öncül rolunu davam etdirəcəyinə inandığını əlavə edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev NDU-da çoxşaxəli kadr hazırlığından bəhs edib və bu prosesdə inklüzivlik ilə bağlı ümumi təhsilin qarşısında duran müasir çağırışları nəzərə çatdırıb. Rektor bildirib ki, "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi konfransı bir daha aşıladı ki, inklüzivlik anlayışına yanaşmada cəmiyyətdə bərabərlik və ədalət prinsiplərinin qorunması önəmlidir. Bu aspektdə, xüsusilə ölkəmizdəki universitetlər arasında əməkdaşlıq mühitinin qurulmasının əhəmiyyətini qeyd edən Elbrus İsayev ortaq tədbirlərin təşkilində NDU-nun hər zaman əməkdaşlığa maraqlı olmasını diqqətə çatdırıb. Rektor əlavə edib ki, BSU-nun inklüzivlik mövzusunda üç dəfə beynəlxalq konfrans keçirmək təcrübəsi var və bu təcrübə bizim üçün önəmlidir. Həmçinin BSU və NDU arasında rəsmiləşəcək əməkdaşlığın əhəmiyyətinə toxunan rektor Elbrus İsayev birliyin gələcəkdə daha sıx fəaliyyətə təkan verəcəyini qeyd edib.

Sonra Naxçıvan Dövlət Universiteti ilə Bakı Slavyan Universiteti arasında əməkdaşlıq müqaviləsi



imzalanıb. Rektor Elbrus İsayev birgə əməkdaşlıq münasibəti ilə Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyevə tədbirdən xatirə olaraq Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbələrinin əl işi olan rəsm əsəri hədiyyə edib.

Sonda NDU-nun və tərəfdaş universitetin "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi konfransında iştirak edən əməkdaşlarına sertifikatlar təqdim edilib.

# NDU BAKIDA KEÇİRİLƏN "TRANSMİLLİ TƏHSİL SİYASƏTİ DİALOQU" FORUMUNDA TƏMSİL OLUNUB

Bakıda ADA Universitetində "Transmilli təhsil siyasəti dialoqu" forumu keçirilib. Britaniya Şurası tərəfindən təşkil olunan forumda Azərbaycan Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, ali təhsil müəssisələri rəsmiləri iştirak ediblər. Naxçıvan Dövlət Universitetini rektor Elbrus İsayev və beynəlxalq əlaqələr üzrə prorektor Aidə Cəlilzadə təmsil ediblər.

Forum Azərbaycanda transmilli təhsilə dəstək məqsədi daşıyıb. Bu istiqamətdə həyata keçiriləcək



tədbirlərlə bağlı təqdimatlar olub, müzakirələr aparılıb.

Azərbaycanda mövcud transmilli təhsil səviyyəsini tədqiq etmək və bununla bağlı imkan və maneələri araşdırmaq üçün British Council tərəfindən aparılan tədqiqatların nəticəsi Britaniya Şurasının Qlobal Tədqiqat Şöbəsinin Meneceri Nilgün Yalçın tərəfindən təqdim edilib.

Bu tədqiqatlar universitetlərin fəaliyyətini qiymətləndirmək sahəsində qlobal təcrübəyə malik təhsil şirkəti-Times Higher Education (THE) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Tədqiqatın məqsədi



qlobal Transmilli Təhsil ənənələrini işıqlandırmaq, universitet və dövlətlərin beynəlmiləlləşmə siyasətinə dəstək olmaqdır.

Forumda səfir müşaviri Eduard Evanz, ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə, Britaniya Şurasının ölkə üzrə direktoru xanım Nərgiz Hacıyeva açılış nitqi ilə çıxış ediblər. Daha sonra Özbəkistanın Vestminster Beynəlxalq Universitetinin rektoru Komiljon Karimov, ADNSU rektoru Rüfət Əzizov, Vorvik Universitetinin Strateji İnkişaf üzrə direktoru Gareth Roberts, ADA Universitetinin prorektoru Vəfa Kazdal tərəfindən təqdimatlar edilib. Azərbaycan və Böyük Britaniya arasında Transmilli Təhsilin inkişafına dəstək olaraq Özbəkistan və Azərbaycanın bu sahədəki təcrübələrinə dair tədqiqatların nəticələri geniş auditoriyanın diqqətinə çatdırılıb. Azərbaycan ali təhsil müəssisələri ilə müxtəlif ölkə universitetləri arasında icrası davam edən ikili diplom proqramları barədə təqdimatlar, qlobal təhsil təcrübəsi kimi mövzular ətrafında müzakirələr olub, forum iştirakçılarının sualları cavablandırılıb.

Şəbəkələşmə mərhələsində Britaniya Şurası rəsmiləri, yerli ATM nümayəndələri və EATDA rəsmiləri ilə forumda təmsil olunan Naxçıvan Dövlət Universitetinin rəhbərliyi arasında fikir mübadiləsi aparılıb, potensial əməkdaşlıq imkanları müzakirə olunub.

# HESABLAMA PALATASI İLƏ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ ARASINDA MEMORANDUM İMZALANIB

Azərbaycan Respublikasının Hesablama Palatası ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memoranduma əsasən elmi-praktik əlaqələrin inkişaf etdirilməsi, ixtisaslı kadr hazırlığının təmin olunması, qarşılıqlı maraq doğuran sahələrdə mövcud təcrübənin



bölüşülməsi və s. istiqamətlərdə fəaliyyətlər nəzərdə tutulub.

Sonra Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşüb. Görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, universitetin və Hesablama Palatasının əməkdaşları iştirak ediblər.

Vüqar Gülməmmədov dövlət maliyyəsinin idarəedilməsi, ona nəzarətin nəzəri və praktik aspektlərinə toxunub. Eyni zamanda sədr Hesablama



Palatasının strateji idarəetmə çərçivəsinə diqqət yetirib, müxtəlif ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində bir sıra proqramların həyata keçirildiyini qeyd edib.

Sədr bu çərçivədə Naxçıvan Dövlət Universiteti ilə birgə fəaliyyətin nəzərdə tutulduğunu da vurğulayıb. O, "Dövlət sektorunda audit" təlim layihəsi üzrə praktik təlimlərin əhəmiyyətindən, ixtisaslı kadrların hazırlanmasının önəmindən bəhs edib.

Vüqar Gülməmmədov qeyd edib ki, gələcəkdə universitet ilə əməkdaşlıq təkcə təlim proqramı ilə məhdudlaşmayacaq, həm də tələbələrin Hesablama Palatasında təcrübə keçməsi, karyera inkişafı üçün təlimlərə cəlb edilməsi, birgə tədqiqat işlərinin aparılması, universitet tələbələrinin sahə üzrə ən yaxşı məqalələrinin "Dövlət auditi" jurnalında nəşr olunması, müvafiq fənlər üzrə tədris proqramlarının müəyyənləşdirilməsinə dəstəyin verilməsi nəzərdə tutulur.

Görüş çərçivəsində Hesablama Palatasının əməkdaşları qurumun fəaliyyəti barədə söhbət açıblar. Daha sonra tələbələrlə dövlət maliyyə nəzarətinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, "Dövlət sektorunda audit" layihəsi çərçivəsində yüksək fəallıq və nəticə göstərmiş tələbələrə xüsusi sertifikatların verilməsi, həmçinin Hesablama Palatasının müvafiq struktur bölmələrində fəaliyyətə cəlb olunmaları planlaşdırılır.

# Universitetdə 2024-cü ilin yekun elmi hesabatına dair tədbir keçirilib










Yekun elmi hesabatın başlanğıcında Elmi Kitabxanada universitet əməkdaşlarının, magistrant, doktorant və tələbələrin 2024-cü ildə nəşr olunmuş elmi əsərlərinin sərgisinə baxış keçirilib. Sərgidə 2024-cü ildə nəşr olunmuş monoqrafiyalar, dərslik və dərs vəsaitləri, proqram və metodik vəsaitlər, xaricdə yüksək impakt faktorlu və yerli jurnallarda nəşr olunmuş məqalələr, keçirilmiş beynəlxalq və respublika konfranslarının materialları, təlim sertifikatları hər fakültə üzrə ayrı-ayrılıqda təqdim olunub. Həmçinin sərgidə 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş əsərlər xüsusi diqqət çəkib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev 2024-cü ildə elmi fəaliyyət istiqamətləri, qarşıya qoyulan hədəflər və bu hədəflərə uyğun həyata keçirilmiş işlər haqqında geniş məlumat verib. Rektor qeyd edib ki, 2024-cü ildə Naxçıvan Dövlət Universiteti elmi potensialının daha da gücləndirilməsi, beynəlxalq elmi əlaqələrin inkişaf etdirilməsi və müasir tədqiqat metodlarının tətbiqi istiqamətində əhəmiyyətli addımlar atıb. İl ərzində universitet əməkdaşlarının yüksək impakt faktorlu jurnallarda nəşr etdikləri məqalələrin sayının artması, beynəlxalq konfranslarda iştirakın genişlənməsi və gənc tədqiqatçıların fəaliyyətinin təşviqi bu istiqamətdə görülən işlərin əyani göstəricisidir. Elbrus İsayev həmçinin təhsilin keyfiyyətinin artırılması, elmi nailiyyətlərin tədrisə inteqrasiyası və istehsalat tətbiqinin elmi fəaliyyətin əsas prioritetlərindən olduğunu vurğulayıb. Rektor 2024-cü ildə həyata keçirilmiş layihələrin yalnız universitet üçün deyil, həm də regionun elmi inkişafına və dünya elminə töhfə verdiyini qeyd edib.

Naxçıvan Dövlət Universitetinin Elm və İnnovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov isə 2024-cü ildə universitetin elmi fəaliyyətinin hədəfləri və əldə olunan nəticələrə dair geniş hesabat təqdim edib. Bildirilib ki, elmi fəaliyyət universitetin elmi-tədqiqat strategiyası və Elmi Şuranın qərarları əsasında təşkil edilib. Bu çərçivədə əməkdaşların elmi fəaliyyətləri "Elmi fəaliyyətin qiymətləndirmə meyarları" əsasında təhlil olunub və qiymətləndirilib. 2024-cü ildə əsas prioritetlərdən biri əməkdaşların elmi potensialının artırılması, beynəlxalq nəşrlərin və yüksək impakt faktorlu jurnallardakı məqalələrin və istinadların sayının artırılması olub. İllər üzrə təhlillər göstərib ki, universitetdə elmi dərəcəli əməkdaşların sayı artaraq 229 nəfərə çatıb (bunlardan 34-ü elmlər doktoru, 195-i fəlsəfə doktorudur). Elsevər Əsədov qeyd edib ki, ötən 5 illə müqayisədə akademik heyətdə elmi dərəcəlilərin sayında müsbət artım dinamikası müşahidə olunub. Belə ki, 2020-ci ildə heyətdə elmi dərəcəlilərin sayı 153 (34%) olubdursa, hazırda bu say 229 (40%) nəfərdir. Ötən illə müqayisədə universitetdə əməkdaşların sayı 40 nəfər artıb ki, bunundan 18 nəfərini elmi dərəcəlilər təşkil edir. Heyətdə elmlər doktorlarının sayı (34 nəfər) 2020-ci illə müqayisədə 15 nəfər artıb. Elmi adlı heyətin dəyişməsində də artım dinamikası müşahidə olunub. Belə ki, 2020-ci ildə elmi adlı heyət 131 nəfər olub (12 professor, 118 dosent), 2024-cü ildə bu say 168 nəfər olub (23 professor, 145 dosent).

Universitetin akademik heyətinin gəncləşdirilməsi sahəsində aparılan işlər də öz müsbət nəticələrini verib. Belə ki, 2024-cü ildə universitet üzrə orta yaş 49 olub ki, bu da əvvəlki illərin göstəriciləri ilə müqayisə edildikdə heyətin gəncləşməsi sahəsində aparılan işlərin düzgün qurulduğunu göstərir.

Prorektor vurğulayıb ki, 2024-cü ildə universitetdə 2400-dən çox elmi əsər nəşr olunub, Scopus və Web of Science bazalarında nəşr sayı 63 olub ki, bu da ötən illərlə müqayisədə ciddi artım deməkdir. Scopus və Web of Science məqalələrinin sayı son 5 ilin ümumi göstəricilərindən artıq olub. Belə ki, 2020-ci ildə universitet üzrə cəmi 579 nəşr olmuşdu ki, buna görə heyət üzrə orta nəşr sayı 1,3 olub. 2024-cü ildə hər bir akademik heyətə düşən nəşr sayı 4,3 olub. Təkcə ötən illə müqayisədə hər əməkdaşa düşən nəşr sayı 1 vahid artıb. 2019-2023-cü illərdə 5 ilin nəticəsinə görə Scopus bazasında cəmi 34 nəşr var idisə, təkcə 2024-cü ildə bu say 53 olub.

Elsevər Əsədov qeyd edib ki, elmi nəşrlərdən 30-u müvafiq olaraq BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olub. Elmi göstəricilər üzrə universitetin Scopus üzrə Hirş indeksi 10-a, Web of Science üzrə isə 9-a yüksəlib. 2024-cü ildə alınmış patentlər və beynəlxalq patent müraciətləri universitetin innovasiya potensialını təsdiqləyir.

Magistr və tələbələrin elmi fəaliyyətləri də diqqətəlayiq olub, müxtəlif indeksli jurnallarda məqalələri dərc olunub. 2024-cü ildə universitetdə 41 elmi tədbir keçirilib, o cümlədən 13 beynəlxalq konfrans təşkil olunub. 2020-ci ildə cəmi 13 konfrans keçirilmişdisə, 2024-cü ildə təkcə beynəlxalq konqres və simpoziumların sayı bu qədər olub.

Daha sonra 2025-ci il üçün universitetin elm sahəsində qarşıya qoyulan hədəflər təqdim olunub. Əsas məqsədlər Elmi-tədqiqat mərkəzlərinin və laboratoriyaların fəaliyyətinin gücləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, elmi işlərin səmərəliliyinin artırılması və nəticələrin tədris və istehsalatda tətbiqinin genişləndirilməsidir. Təsərrüfat müqaviləli elmi işlərin təşkili, beynəlxalq və yerli qrant layihələrinin icrası, əməkdaşlıq müqavilələri çərçivəsində birgə tədqiqatların aparılması, patent və ixtiraçılıq sahəsində təlimlərin təşkili, yüksək impakt faktorlu jurnallarda nəşrlərin artırılması əsas prioritetlərdəndir. Həmçinin yerli və xarici elm-təhsil müəssisələri ilə birgə tədbirlərin keçirilməsi və tədqiqatların müasir tələblərə uyğunlaşdırılması qarşıya qoyulan məqsədlər sırasındadır.

Universitetin Magistratura və Doktorantura Mərkəzinin direktor müavini Təbrizə Bağırova Tələbə Elmi Cəmiyyətinin 2024-2025-ci tədris ili üzrə hesabatını təqdim edib. O, cəmiyyətin fəaliyyət istiqamətləri, strukturu, fakültələrdə TEC xətti ilə həyata keçirilən elmi-tədqiqat işlərinin nəticələri, eləcə də TEC-in təşəbbüsü ilə təşkil olunan tədbir və layihələr barədə danışıb. Bildirilib ki, TEC tələbələrin elmi potensialının artırılması, onların sosial və humanitar layihələrdə iştirakı, insani keyfiyyətlərə əsaslanan və vətənpərvər ruhda yetişməsi üçün müxtəlif fəaliyyətlər təşkil edib və bu işlərdə təşkilatçı qismində çıxış edib. Sonra rektor Elbrus İsayev TEC xətti ilə məqalələri nəşr olunan tələbələrə sertifikat təqdim edib.

Rektor Elbrus İsayev, Yusif Mirzəzadəni Tələbə Elmi Cəmiyyətinə yeni seçilən sədri kimi kollektivə təqdim edərək bildirib ki, Yusif Mirzəzadə Hüquqşünaslıq ixtisasının ikinci kursunda təhsil alır və təkcə 2024-cü ildə 8 elmi, 12 publisistik məqaləsi yerli və xarici jurnallarda nəşr olunub. Buna görə də rektor tərəfindən Yusif Mirzəzadə "İlin gənc tədqiqatçısı" mükafatı ilə təltif olunub.

Hesabatın sonunda 2024-cü ildə elmi fəaliyyətinə görə fərqlənən əməkdaşların mükafatlandırılması mərasimi keçirilib. Universitet Elmi Şurasının qərarı ilə əməkdaşlar və doktorantlar nüfuzlu və impakt faktorlu nəşrlərinə, elmmetrik bazalardakı göstəricilərinə, Hirş indeksinə və istinad saylarına görə mükafatlandırılıb. "Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmi" çərçivəsində 50 əməkdaşın əməkhaqqına 1 il müddətində 10-25% stimullaşdırıcı əlavələr edilib. Scopus və Web of Science bazalarındakı hər bir nəşr üçün 1500-2500 manat, digər indeksli xarici nəşrlər üçün 100 manat, Hirş indeksi və istinadlara görə 300-500 manat, hər bir patent üçün 1000 manat məbləğində mükafatlar təqdim olunub. Bundan əlavə, 2024-cü ilin elmi fəaliyyətlərinə görə ilin fakültəsi, ilin kafedraları, ilin tədqiqatçı nominasiyası üzrə müəllim və tələbələrə plaketlər təqdim edilib. İlin fakültəsi olaraq Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi seçilib. İlin kafedraları kimi "Baytarlıq təbabəti", "Biologiya", "Nəqliyyat mühəndisliyi və texniki elmlər", "Təməl tibb" və "Azərbaycan dilçiliyi" kafedraları müəyyən edilib. İlin tədqiqatçıları Mahir Məhərrəmov, Taleh Xəlilov, Məftun Əliyev, Daşqın Qənbərov və Cavanşir Zeynalov, tədqiqatçı tələbələri isə Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi Yusif Mirzəzadə, Tibb ixtisası üzrə IV kurs tələbəsi Bəhriyyə Mustafayeva və İnformasiya texnologiyaları ixtisası üzrə IV kurs tələbəsi Şəhriyar Quliyev seçilib.

**Fəxriyyə Səyyadova**
***NDU, Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# Naxçıvan Dövlət Universitetində Azərbaycanın tanınmış incəsənət xadimləri ilə görüş keçirilib

***Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ustad tarzən, pedaqoq, ictimai xadim, musiqi əsərlərinin müəllifi, tədqiqatçı və Əməkdar mədəniyyət işçisi Əkrəm Məmmədlinin 80 illik yubiley tədbiri çərçivəsində tanınmış musiqi xadimləri ilə görüş keçirib.***













Görüşdə Asəf Zeynallı adına Musiqi Kollecinin direktoru, professor, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Azərbaycan Dövlət Filarmoniyası Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri, professor, Xalq artisti Ağaverdi Paşayev, Bakı Musiqi Akademiyasının müəllimi, professor, Əməkdar incəsənət xadimi Arif Əsədullayev, Azərbaycan Milli Konservatoriyasının müəllimləri və Əkrəm Məmmədlinin tələbəsi olan tar ifaçıları iştirak ediblər.

Rektor görüş zamanı universitetin inkişafı barədə danışaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində görüləcək işləri diqqətə çatdırıb. Elbrus İsayev Naxçıvan Dövlət Universitetinin beynəlxalq əməkdaşlıqlarının genişləndirilməsi, birgə proqramların təşkili və yeni məzmunlu təhsil layihələrinin tətbiqinə dair həyata keçirilən tədbirləri qeyd edib. Həmçinin universitetin İncəsənət fakültəsi və Naxçıvan Musiqi Kollecinin birgə təşkil etdiyi konsertlər, Caz musiqi tədbirləri və Simfonik Orkestr yaradılması ilə bağlı görülən işlər xüsusi qeyd olunub.

Qonaqlar çıxışlarında Əkrəm Məmmədlinin yaradıcılıq irsini yüksək qiymətləndirərək Naxçıvan Dövlət Universitetinin musiqi sənətinə göstərdiyi diqqət və dəstəyi təqdir ediblər. Tədbirdə Əkrəm Məmmədlinin tələbələrindən birinin tarda ifası iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Tədbirin sonunda “Ağ Saray” MTK-nın təsisçisi və rəhbəri Səfər Əliyev Əkrəm Məmmədlinin sənət yoldaşları və dostları adından universitet rəhbərliyinə yubileyin yüksək səviyyədə təşkilinə görə təşəkkürnamə təqdim edib. Bununla yanaşı, rektor Elbrus İsayevə universitet loqolu - “Möminə Xatun türbəsi” təsvir olunmuş xalça hədiyyə olunub.

Yubiley tədbiri çərçivəsində qonaqlar tərəfindən universitetin İncəsənət fakültəsinə Belarus istehsalı olan fortepiano hədiyyə edilib.

Sonra universitetin İncəsənət fakültəsinin tələbəsinin piano ifası qonaqların zövqünü oxşayıb. Rektor Elbrus İsayev bu jesti yüksək qiymətləndirərək musiqi sənətinə verilən dəyərin bir nümunəsi kimi qeyd edib.

***Nardanə Əliyeva***
***NDU, Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# Rektor Elbrus İsayev “Açıq mikrafon” layihəsi çərçivəsində tələbələrlə görüşüb

Naxçıvan Dövlət Universitetinin “Açıq mikrofon” layihəsinin növbəti qonağı ali təhsil ocağının rektoru Elbrus İsayev olub. Layihə çərçivəsində rektor dördüncü dəfə universitet tələbələri ilə görüşüb. Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə keçirilən görüşdə universitet rəhbərliyi, müəllim heyəti, həmçinin tələbələr iştirak ediblər.

Görüşdə rektor Elbrus İsayev belə görüşlərin təşkilini yüksək qiymətləndirib, belə hazırda dayanmadan inkişaf edir. Qlobal reytinqlər bizim qarşımıza çox böyük vəzifələr qoyur və biz bu vəzifələri rəqabət mühitində mütləq icra etməliyik, daha keyfiyyətli tələbə kontingentinə nail olmalıyıq. Biz buna da nail oluruq. Ötən ilin statistikası deməyə əsas verir ki, son illərdə NDU-da yüksək ballı qəbul faizləri dəfərlərlə artıb.

Tələbələrin universitetin elmi və tədris göstəricilərinin yüksəlişində xüsusi rolu olduğu-





platformaların idarəetmədə operativlik, universitet-tələbə münasibətlərində müraciətlərin çevik cavablandırma əhəmiyyəti daşıdığını bildirib. Tələbə kontingentinin 10 minə yaxın olduğuna diqqət çəkərək NDU-da tələbəyönümlü böyük layihələrin həyata keçirildiyini və bu prosesdə də hədəf auditoriyanın tələbələr olduğunu qeyd edib. Rektor tələbələrin hərtərəfli inkişafı üçün bu il də bir çox layihələrin nəzərdə tutulduğunu, xüsusilə universitet kampusunun yeni dizaynda təşkil olunacağını, sosial tədbirlər üçün məkanların tikiləcəyini, idman tədbirlərinin geniş vüsət alacağını vurğulayıb. Eyni zamanda Tibb ixtisası ilə bağlı gözlənilən yeniliklərdən, ikili diplom layihələrinin tələbələrə təklif etdiyi geniş imkanlardan bəhs edib. Rektor xüsusilə vurğulayıb ki, NDU nu qeyd edən rektor Elbrus İsayev bu kimi tədbirlərin davamlı xarakter alacağını bildirib. Tələbələrlə dərslərdə, auditoriyalarda, müxtəlif tədbirlərdə mütəmadi olaraq görüşlərin keçirildiyini, universitetin rəsmi internet saytında “Rektora müraciət” bölməsi üzərindən də şikayət və təkliflərin qəbul edildiyini diqqətə çatdırıb.

Sonra söz Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanovun moderatorluğunda tələbələrə verilib. Rektor Elbrus İsayev 3 saat ərzində tələbələrin 30-dan artıq sualını ətraflı cavablandırıb, müraciətlərini dinləyib, öz təklif və tövsiyələrini söyləyib.

**Kifayət Mahmudova**

# Tibb fakültəsi tələbələri Bursa Uludağ Universitetində beynəlxalq təcrübədə iştirak ediblər

Tibb fakültəsinin tələbələri EMSA Naxçıvan və EMSA Uludağ arasında keçirilən dəyişmə proqramının ikinci mərhələsində iştirak ediblər. Proqram çərçivəsində tələbələr Bursa Uludağ Universitetində tibb sahəsində zəngin elmi və praktiki təcrübə qazanıb, həmçinin mədəni mübadilə imkanlarından yararlanıblar.



Tələbələr Bursa Uludağ Universitetinin Anatomiya Kafedrasında tədris və təcrübə prosesini izləyərək ağız anatomiyası üzrə dərslərdə iştirak ediblər. “Mikrobiologiya” və “Histologiya” kafedralarının elmi və tələbə laboratoriyalarında tədqiqatlar aparılıb, təqdimatlar keçirilib. Həmçinin Təcrübə Heyvanları Yetişdirmə və Araşdırma Mərkəzi və USİM Yaxşı Tibb Təcrübələri və Simulyasiya Mərkəzində virtual pasiyentlər üzərində praktiki təlimlər həyata keçirilib. Proqramın xüsusi məqamlarından biri Məhkəmə Tibbi İdentifikasiyası seminarı olub. Tələbələr “Pediatriya” kafedrasında kliniki tədqiqatlarla da tanış olublar.

Proqram çərçivəsində tələbələr Bursanın tarixi və mədəni yerlərinə səyahət ediblər, həmçinin təşkil olunan sosial tədbirlər tələbələrə yeni dostluqlar qurmaq, mədəniyyətlərarası dialoq yaratmaq və unudulmaz təcrübələr qazanmaq imkanı verib.

Bu beynəlxalq proqram tələbələrin peşəkar inkişafına mühüm töhfə verməklə yanaşı, EMSA Naxçıvan və EMSA Uludağ arasında uğurlu əməkdaşlıq nümunəsidir. Tibb təhsilinin keyfiyyətini artırmaq və tələbələrin gələcək uğurlarına dəstək olmaq əməkdaşlığın əsas məqsədidir.

Naxçıvan Dövlət Universiteti tələbələrinin beynəlxalq proqramlarda iştirakı, onların həm elmi, həm də şəxsi inkişafına geniş imkanlar açır.

# "Web of Science" platforması üzrə təlim keçirilib

Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzində Clarivate şirkətinin Azərbaycan üzrə nümayəndəsi İltifat İbrahimov universitetin professor-müəllim heyəti və tədqiqatçılar üçün Web of Science platformasına dair təlim keçirib.




Universitetin Elmi Kitabxanasının direktoru Xumar Məmmədova tədbirin açılışında çıxış edərək təlimçi haqqında iştirakçılara məlumat verib. O, NDU-nun dəvəti ilə bu təlimin baş tutduğunu qeyd edib. Belə təlimlərin elmi tədqiqat aparan müəllim və tələbələr üçün əhəmiyyətini vurğulayıb.

Daha sonra Clarivate şirkətinin Azərbaycan üzrə nümayəndəsi İltifat İbrahimov Web of Science platformasının funksionallıqları, axtarış və analitika imkanları, təşkilat və tədqiqatçı profillərinin yaradılması, Journal Citation Reports və Master Journal List, eləcə də EndNote Online referans idarəetmə sistemi barədə geniş təqdimat edib. Təlim həm nəzəri, həm də praktiki hissədən ibarət olub. Təlim sual-cavab sessiyası ilə davam edib.

Təlimin davamı universitetin Elmi Kitabxanasında Kitabxanaçılıq ixtisasının müəllim və tələbələri, eləcə də kitabxana əməkdaşları üçün keçirilib. Təlim zamanı İltifat İbrahimov ProQuest Full-Text Academic Databases, ProQuest Dissertations and Theses Globa, və Ebook Central Academic Book Database platformalarının funksionallığı, axtarış alqoritmləri və tədqiqatçılar üçün təqdim etdiyi imkanlar barədə geniş məlumat verib. O həmçinin bu bazalardan effektiv istifadə qaydalarını izah edərək konkret nümunələr üzərində praktiki göstərişlər təqdim edib.

# Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi nümayəndələrinin təşkilatçılığı ilə elm və ali təhsil ictimaiyyətinə açıq İnfo-sessiya keçirilib

Naxçıvan Dövlət Universitetində Naxçıvan MR-in elm və ali təhsil ictimaiyyətinə açıq İnfo-sessiya keçirilib. Tədbir Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı, NDU-nun əməkdaşlığı ilə baş tutub. İnfo-sessiyada universitetin rəhbər heyəti, professor-müəllimləri və tələbələri ilə yanaşı, Naxçıvan Müəllimlər İnstitutu, ARETN Bioresurslar İnstitutu, Təbii Ehtiyatlar İnstitutu və Astrofizika Rəsədxanasının əməkdaşları iştirak ediblər.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi nümayəndələri iştirakçıları elm və ali təhsilin beynəlmiləlləşməsi və beynəlxalq əməkdaşlıq imkanları, "Scopus"un süni intellekt alətindən istifadə etməklə tədqiqat bacarıqlarının inkişafı barədə məlumatlandırıb.




Agentliyin Beynəlxalq Əməkdaşlıq şöbəsinin Xaricdə təhsil sektorunun müdiri Niftalı Qasımlı "Beynəlxalq əməkdaşlıq fəaliyyətinin təşkili" mövzusunda təqdimatla çıxış edib və beynəlxalq reytinqlərdə iştirak, NDU-nun beynəlxalq əməkdaşlıq imkanları və istiqamətləri, AR vətəndaşları üçün dövlət xətti ilə (HTP) xaricdə təhsil imkanları, Beynəlxalq tələbələrin Azərbaycanda təhsil imkanları ("Heydər Əliyev




adına Təhsil Qrantı", HTP, İƏT, NAM və s.) və beynəlxalq tələbələrlə iş, Beynəlxalq mübadilə proqramları və digər mövzularda ətraflı məlumat verib.

Agentliyin Elmi müəssisələrlə iş şöbəsinin böyük məsləhətçisi Nərminə Abullayeva "Scopus AI ilə tədqiqat bacarıqların inkişafı" mövzusunda təqdimatla çıxış edib. Scopus-dan səmərəli istifadə edərək əhatəli ədəbiyyat və jurnal axtarışı strategiyaları, tədqiqat trendlərinin, istinadların və tədqiqat təsirlərinin təhlili, elmi araşdırmalar üçün Scopus-un süni intellekt alətindən səmərəli istifadə etməklə iş prosesini optimallaşdıraraq tədqiqata ayrılan vaxta qənaət və digər bölmələrdən bəhs edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar səsləndirilib, görüş diskussiya şəklində davam edib.

**Kifayət Mahmudova**

# Azərbaycan Dillər Universitetinə təcrübəyə gedəcək tələbələrlə görüş keçirilib

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Xarici dillər fakültəsinin IV kurs Tərcümə ixtisası üzrə (Ərəb-Azərbaycan dilləri), (Fars-Azərbaycan dilləri), (İngilis-Azərbaycan dilləri) təhsil alan 6 tələbə ilə görüş keçirib.



Tələbələr Azərbaycan Dillər Universitetində gedərək Şəms Tərcümə Mərkəzində, Heydər Əliyev Mərkəzində və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin yanında tərcümə sahəsində 1 semestr təcrübə keçəcəklər. Görüşdə tələbələrin təcrübə müddətində qarşılaşa biləcəkləri imkanlar və həmçinin tədris və praktiki bacarıqlarının inkişaf etdirilməsi məsələləri müzakirə edilib.

Rektor Elbrus İsayev çıxışında tələbələrə gələcək karyeraları üçün belə təcrübələrin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, bu təcrübə tələbələrin inkişafında mühüm rol oynayacaq və onların nəzəri biliklərini praktiki fəaliyyətlə birləşdirmək üçün əvəzolunmaz bir fürsət yaradacaq.



Görüşün əsas məqsədi tələbələrin motivasiyasını artırmaq və onlara dəstək vermək olub. Bu cür təşəbbüslər Naxçıvan Dövlət Universitetində tədris keyfiyyətinin artırılması və tələbələrin beynəlxalq standartlara uyğun mütəxəssislər kimi yetişdirilməsi istiqamətində görülən işlərin bir hissəsidir.

***Nardanə Əliyeva***
***NDU, Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# DIRNA Erasmus+ layihəsi çərçivəsində süni intellekt üzrə təlim keçirilib

DIRNA Erasmus+ layihəsi çərçivəsində İzmir Yüksək Texnologiya İnstitutunun təlimçiləri tərəfindən "Süni intellektin tədqiqat fəaliyyətlərinə təsiri və kitabxana xidmətlərində tətbiqi" mövzusunda təlim keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının və Memarlıq və mühəndislik fakültəsinin əməkdaşları iştirak ediblər.

Təlimdə süni intellekt texnologiyalarının akademik tədqiqat prosesinə inteqrasiyası, məlumat resurslarının daha səmərəli idarə olunması və istifadəçi dostu elektron kitabxana sistemlərinin yaradılması məsələləri müzakirə edilib. Təlimçilər həmçinin süni intellektin istifadəsinin üstünlükləri və bu texnologiyalardan düzgün yararlanmaq üçün tələb olunan əsas bacarıqlar haqqında ətraflı məlumat veriblər.

Tədbir iştirakçılarına təqdim olunan biliklər süni intellektin tədris və tədqiqat sahəsindəki potensialını daha yaxşı dəyərləndirmək və innovativ həllərdən yararlanmaq üçün yeni imkanlar açır.








# NDU-da yenidən növbəti təhsil fürsəti: TƏLƏBƏ MÜBADİLƏSİ

Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsi 2024-2025-ci tədris ilində növbəti dəfə tələbə mobilliyi vasitəsilə yerli və xarici universitetlərdə təhsillərini davam etdirəcəklər.

Bu barədə tələbə mobilliyi ilə əlaqədar keçirilən görüşdə universitetin rektoru Elbrus İsayev məlumat verib. Rektor Naxçıvan Dövlət Universitetinin yerli və xarici universitetlərlə, xüsusilə də Türkiyə universitetləri ilə əlaqələrindən danışıb. Bildirib ki, bağlanan əməkdaşlıq müqavilələri və ikili diplom proqramları vasitəsilə müəllim və tələbələrin həmin universitetlərdə bir müddətlik təhsil və fəaliyyətlərini davam etdirmə, təcrübə və dərs keçmələri təmin edilir. Burada da əsas məqsəd təhsildə daha keyfiyyətli və innovativ yanaşmaları tələbələrə öyrətmək, digər universitetlərin proqramlarından istifadə edərək daha yaxşı mütəxəssis kimi formalaşmalarına imkanlar yaratmaqdır.







Tələbələrlə keçirilən görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruqiyyə Kərimova bu dəfə tələbə mobilliyi sahəsində 50-dən artıq tələbənin mübadiləsinin bir sıra universitetlərlə əldə olunan razılığa əsasən aparıldığını qeyd edib. İqtisadiyyat, Hüquqşünaslıq, Baytarlıq, Jurnalistika, Torpaqşünaslıq və aqrokimya, Coğrafiya, Biologiya və digər ixtisaslardan olan tələbələrin mübadiləyə gedəcəyini söyləyib. Xüsusilə də universitet üçün prioritet olan İnformasiya texnologiyaları, Energetika mühəndisliyi, Kompüter mühəndisliyi ixtisaslarından olan tələbələrin üstünlük təşkil etdiyinə, bir neçə ixtisasın tədrisinin ingilis dilində olduğuna diqqət çəkib. Vurğulayıb ki, Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dillər Universiteti, Türkiyənin İstanbul Aydın Universiteti, Qazi Universiteti, Qaradəniz Texniki Universiteti, Pamukkale Universiteti, Ərzurum Atatürk Universiteti, Qafqaz Universiteti arasında imzalanmış əməkdaşlıq müqavilələri var. Ali təhsil ocağının müvafiq ixtisaslarında təhsil alan tələbələr bir semestr müddətində qardaş ölkənin nüfuzlu universitetlərində təhsillərini davam etdirəcəklər.

Sonda universitetin rektoru Elbrus İsayev tələbələrə öz tövsiyələrini söyləyib, onları təbrik edərək elmi nailiyyətlər arzu edib.

**Kifayət Mahmudova**
**NDU, Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri**

# "IELTS tərəfdaşları tədbiri"ndə Naxçıvan Dövlət Universiteti də təmsil olunub

11 fevral 2025-ci il tarixində Britaniya Konsulluğunun dəvəti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Cənab Fergus Auldun iqamətgahında keçirilən tədbirdə Təhsilin İnkişafı Fondunun nümayəndələri, ali təhsil müəssisələrinin IELTS mərkəzlərinə məsul şəxsləri və IELTS müəllimləri iştirak ediblər. Tədbirdə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə və IELTS koordinatoru Bayram Əliyev də NDU-nu təmsil ediblər.







Tədbiri giriş sözü ilə açan və iştirakçıları azərbaycanca salamlayan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Cənab Fergus Auld IELTS üzrə əməkdaşlıq edən tərəfdaşlarla işbirliyindən məmnunluğunu ifadə edib və Naxçıvan Dövlət Universitetinin Təhsilin İnkişafı Fondunun IELTS layihəsinə qoşulmasının önəmini vurğulayıb.

British Council Azərbaycanın ölkə üzrə direktoru xanım Nərgiz Hacıyeva və Britaniya Konsulluğunun Cənubi Qafqaz üzrə İmtahan rəhbəri Nərgiz Əkbərova qonaqları salamlayaraq tədbirin mahiyyəti və IELTS üzrə tərəfdaşlıq fəaliyyətinin gələcək perspektivlərindən bəhs ediblər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə universitetdə fəaliyyət göstərən IELTS Qeydiyyat və İmtahan Mərkəzinin fəaliyyəti, uğurları və gələcək strateji hədəfləri barədə səfirə məlumat verib. 2022-ci ildən fəaliyyət göstərən NDU IELTS Qeydiyyat və İmtahan Mərkəzində indiyə kimi 250-yə yaxın namizədin IELTS üzrə akademik ingilis dili bacarıqlarının yoxlanıldığını diqqətə çatdırıb. Prorektor qeyd edib ki, mərkəzdə imtahan kompüter əsaslı təyinatla həyata keçirilir və Britaniya Konsulluğunun IELTS imtahanı mütəxəssislərinin birbaşa iştirakı ilə reallaşdırılır. Cənab səfir statistik nəticə və mərkəzin fəaliyyətindən məmnunluğunu ifadə edərək gələcək əməkdaşlıq və fəaliyyətlərdə uğurlar arzu edib.

# ADA Universiteti Kitabxanasının direktoru Elçin Məmmədovla onlayn görüş keçirilib



ADA Universiteti Kitabxanasının direktoru, 2023-2025-ci illər üçün Kitabxana Assosiasiyalarının Beynəlxalq Federasiyası (IFLA)-nın Sənəd Təminatı və Resurs Paylaşımı komitəsinin (DDRS) üzvü və İnformasiya Koordinatoru Elçin Məmmədov ilə görüşün keçirilməsində əsas məqsəd ADA Universiteti Kitabxanası ilə təcrübə mübadiləsi aparmaq və nəzərdə tutulmuş əməkdaşlıq perspektivlərini müzakirə etmək olub.

Elçin Məmmədov tədbirdə iştirak edən kitabxana əməkdaşları və "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisasında təhsil alan tələbələri maraqlandıran sualları ətraflı cavablandırıb.

# Azərbaycanın xalq artistləri tələbələrə ustad dərsi keçiblər

Universitetin İncəsənət fakültəsinin İnstrumental ifaçılıq ixtisasının tələbələri üçün Azərbaycanın xalq artistləri və tanınmış mədəniyyət və ictimaiyyət xadimləri tərəfindən ustad dərsi keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Xalq artistləri Ağaverdi Paşayev, Vamiq Məmmədəliyev, Şəfiqə Eyvazova, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Malik Mansurov, Vasif Allahverdiyev, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Nazim Kazımov, professor Arif Əsədullayev və Azərbaycan Respublikasının Əməkdar artisti Tariyel Abbasov iştirak ediblər.



Dərs zamanı təlimçilər Azərbaycanın milli musiqisi və muğam sənəti ilə bağlı dəyərli məlumatlar təqdim ediblər. Milli muğamların yaranma tarixi, ifa tərzi və onların qorunması istiqamətində görülən işlər haqqında geniş məlumat verilib. Xüsusilə tar alətinin peşəkar səviyyədə təbliqi və onun ifaçılıq sənətindəki yeri vurğulanıb. Təlimçilər tələbələrlə muğamların düzgün ifası və tarın texniki imkanları ilə bağlı təcrübələrini bölüşüblər.

Sonda tələbələrlə sual-cavab formatında müzakirələr aparılıb, onların ifaçılıq bacarıqları dinlənilib və müvafiq tövsiyələr verilib. Tədbir gənc musiqiçilərin peşəkar inkişafına töhfə vermək məqsədilə təşkil olunub və böyük maraqla qarşılanıb.

# Naxçıvan Dövlət Universiteti Konservatoriyasının müəllimi Əkrəm Məmmədlinin 80 illik yubileyi qeyd olunub

Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə İncəsənət fakültəsinin müəllimi, Prezidentin fərdi təqaüdçüsü, Əməkdar mədəniyyət işçisi, görkəmli tarzən Əkrəm Məmmədlinin 80 illik yubileyi qeyd olunub. Tədbirdə universitetin professor-müəllim heyəti, incəsənət xadimləri və qonaqlar iştirak ediblər.

Tədbirin açılışında Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin “Xalq çalğı alətləri” kafedrasının kamança müəllimi Bənövşə Rzayeva ustad tarzən Əkrəm Məmmədliyə həsr etdiyi şeiri səsləndirib. Ardınca video formatda Əkrəm Məmmədlinin ifasında "Orta Mahur" muğamı təqdim olunub və izləyicilər tərəfindən alqışla qarşılanıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ustad tarzən Əkrəm Məmmədlinin Azərbaycan musiqi mədəniyyətindəki əvəzsiz rolunu yüksək qiymətləndirib. Qeyd edilib ki, görkəmli tarzən Azərbaycan musiqisinin inkişafında misilsiz xidmətlər göstərir, həm ifaçı, həm də Naxçıvan Dövlət Universiteti Konservatoriyasının müəllimi kimi yeni nəsil musiqiçilərin yetişməsində xüsusi rol oynayır.

Rektor vurğulayıb ki, Əkrəm Məmmədlinin sənəti Azərbaycan musiqisinin zənginliyini dünyaya tanıdan ən dəyərli nümunələrdən biridir. O, təkcə ifaçılığı ilə deyil, pedaqoji fəaliyyəti ilə də musiqi irsimizin gələcək nəsillərə çatdırılmasında əvəzsiz xidmətlər göstərmişdir. Rektor tarzənin sənətə olan sevgisi və fədakarlığının onu musiqi dünyasında ölməz bir sima etdiyini və belə tədbirlərin sənətkarların irsinin yaşadılması və təbliği baxımından əhəmiyyətini diqqətə çatdırıb.







Elbrus İsayev çıxışının sonunda yubilyara elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayıb, ona universitetin fəxri fərmanını və İncəsənət fakültəsi tələbələrinin hazırladığı əl işini təqdim edib.

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov bildirib ki, Əkrəm Məmmədli mahir pedaqoq, musiqi təşkilatçısı, milli musiqimizin incəliklərini dərindən anlayan musiqi xadimi, hörmətlə anılan yaşlı nəsil nümayəndələrindən biridir.

Sonra ustad tarzənə Mədəniyyət Nazirliyinin fəxri fərmanı və hədiyyəsi təqdim olunub.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik Rafael Hüseynov da video formatda çıxış edərək yubilyarın həyat və yaradıcılığı haqqında fikirlərini bölüşüb.

Azərbaycan Respublikasının Xalq artistləri – Ağaverdi Paşayev, Vamiq Məmmədəliyev, Şəfiqə Eyvazova, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Malik Mansurov, Vasif Allahverdiyev, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Nazim Kazımov, professor Arif Əsədullayev, Azərbaycan Respublikasının Əməkdar artisti Tariyel Abbasov, həmçinin Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası sədrinin müavini və başqaları Əkrəm Məmmədlinin sənət yolundan, Azərbaycan və Naxçıvan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərindən söz açıb və hədiyyələrini təqdim ediblər. Qeyd olunub ki, Əkrəm Məmmədli 50 ildən çoxdur ki, tar ifaçılığı və onun tədrisi ilə məşğul olur.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Xalq çalğı alətləri orkestri və xorunun müşayiəti ilə Naxçıvan Dövlət Universitetinin müəllimləri, Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdın Babayev, Prezident mükafatçısı Səxavət Rəhimov, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimova, “Xalq çalğıları orkestri” kafedrasının müəllimi İsmayıl Mürsəlov, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, həmçinin Naxçıvan Dövlət Universitetinin nəzdində olan Naxçıvan Musiqi Kollecinin müəllimləri - Prezident mükafatçısı İlkin Abdullayev, Aysel Həsənova, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Ruhiyyə Hüseynova, dirijor Hakim Məmmədli, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev və digər sənətkarların "Aylı gecələr", “Sevgi rəqsi” kimi bir sıra musiqi nömrələri təqdim edilib.

Ustad tarzən Əkrəm Məmmədlinin oğlu Kənan Məmmədli və əmisi oğlu Səfər Əliyev çıxışlarında sənətkarın zəngin irsi və musiqiyə verdiyi töhfələrlə ailələrinin qürur duyduğunu ifadə ediblər. Onlar Əkrəm Məmmədlinin sənət və pedaqoji fəaliyyətinin hər zaman böyük hörmət və ehtiramla xatırlandığını vurğulayıblar.

Sonda yubilyar əməyinə və yaradıcılığına yüksək qiymət verildiyi üçün minnətdarlığını bildirib.

**Nardanə Əliyeva**
**NDU, Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

# NDU-da “İnklüziv təhsil: reallıqlar, nailiyyətlər, perspektivlər” mövzusunda I Respublika Elmi konfransı keçirilib




NDU-nun Beynəlxalq məktəbində keçirilən konfrans Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və Xəzər Universitetinin birgə təşkilatçılığı, Naxçıvan MR Təhsil Nazirliyi və Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin iştirakı ilə təşkil olunub.

Konfransda rəsmi qurumların, təşkilatçı universitetlərin rəhbər heyəti və nümayəndələr, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Naxçıvan Müəllimlər İnstitutu, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Sumqayıt Dövlət Universitetinin müəllimləri, ölkənin müxtəlif bölgələrindən orta məktəb müəllimləri, muxtar respublika orta məktəblərinin psixoloqları və digər dəvətlilər iştirak ediblər.

Öncə Dövlət Himni səsləndirilib. Sonra Naxçıvan şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin müəlliməsi Lətifə Quliyevanın sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə hazırladığı “Gələcəyə inam” layihəsinin təqdimatı olub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev giriş sözü ilə konfransı açıq elan edərək, bildirib ki, konfrans müxtəlif əqli və fiziki məhdud imkanlı uşaqların geniş çeşidli tədris fəaliyyətlərinə cəlb edilməsinə dair aparılmış tədqiqatların müzakirə edilməsi, problemin həlli yollarına dair təkliflərin dəyərləndirilməsi məqsədi daşıyır. Tədbir Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Elxan Nəcəfovun, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadənin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Asəf Zamanovun, Bakı Slavyan Universitetinin “Pedaqogika və psixologiya” kafedrasının müdiri Piralı Əliyevin, Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Aygün Verdiyevanın çıxışları ilə davam edib. Natiqlər xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsindən, onların keyfiyyətli təhsili üçün hüquqi bazanın yaradılmasından, inklüziv təhsilin tətbiqində real vəziyyət, mövcud problemlər və beynəlxalq təcrübənin ölkə təhsilinə inteqrasiyasından danışıblar. Bildiriblər ki, inklüziv təhsil artıq ölkəmizdə təhsilin ayrılmaz tərkib hissəsini təşkil edir.





3 salon, 16 paneldə bölmə iclasları ilə davam edən konfransda 150-dən çox tədqiqatçı tərəfindən təqdim edilən 140-dək elmi təqdimat müzakirə olunub.

“İnklüziv təhsil: reallıqlar, nailiyyətlər, perspektivlər” mövzusunda I Respublika Elmi konfransı çərçivəsində Naxçıvan Dövlət Universitetinin İnklüziv Təhsil Mərkəzinin də açılışı olub. Mərkəzin direktoru Taleh Xəlilov qonaqlara mərkəz və avadanlıqlar haqqında məlumat verib.

Sonda rektor Elbrus İsayev konfransın təşkilində əməkdaşlıq edən dövlət qurumlarına və tərəfdaş universitetlərə plaketlər təqdim edib.

# Azərbaycan Gəncləri Gününə həsr olunan görüş

Naxçıvan Dövlət Universitetinin Sosial Xidmət Mərkəzində Azərbaycan Gəncləri Günü münasibətilə tələbələrlə görüş təşkil edilib.

Görüşdən öncə universitetin nailiyyət qazanan gənclərinin diplom və kuboklarından ibarət sərgiyə baxış olub. Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək tələbə-gənclərin inkişafına göstərilən dövlət qayğısından bəhs edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin tərkib hissəsi kimi həyata keçirilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" gənclərin təhsil və karyera imkanlarını genişləndirir. Universitetdə yeni ixtisasların açılması, beynəlxalq proqramların tətbiqi və ingilisdilli orta məktəbin fəaliyyətə başlaması gənclərin qlobal bilik və bacarıqlara yiyələnməsinə şərait yaradır. SABAH qruplarının yaradılması, ikili diplom proqramlarının həyata keçirilməsi, NDU nəzdində İngilisdilli Gimnaziya və Kembric məktəbinin açılması yalnız tələbələr üçün deyil, şagirdlər üçün də beynəlxalq səviyyədə təhsilə çıxış imkanlarını artırır. Rektor universitet tələbələrinin uğurlarının daim diqqət mərkəzində olduğunu vurğulayaraq- Azərbaycan Gəncləri Günü münasibətilə fərqlənən on tələbəyə Ağbulaq İstirahət Mərkəzində 3 gün istirahət imkanı təqdim olunduğunu bildirib və bütün gəncləri təbrik edərək onlara xoşbəxt gənclik, sağlamlıq və uğurlu gələcək arzulayıb.








Digər çıxış edənlər Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov, Tələbə Gənclər Təşkilatının sədri Kamal Nağılı və Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə də çıxışlarında ötən ilin uğurlarla dolu bir il olduğunu bildirib, tələbələrin il ərzində müxtəlif kateqoriyalarda aktiv fəaliyyətlərinə diqqət çəkiblər.

Daha sonra universitetin sosial-ictimai həyatında fərqlənən tələbələrə sertifikatlar təqdim edilib.

Tədbirin sonunda çay süfrəsi ətrafında NDU-nun İncəsənət fakültəsinin Milli vokal ixtisasının III kurs tələbəsi Samir İsmayılovun canlı ifası və Elektrik və elektronika mühəndisliyi ixtisasının I kurs tələbəsi Ədalət Vəliyevin skripkada ifası dinlənilib.

***Nardanə Əliyeva***
***NDU, Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# "İnnovasiyalı iqtisadiyyatda rəqəmsallaşma: rəqəmsal mühasibat uçotu, müasir maliyyə mexanizmləri, reallıqlar və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirilib

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib

Naxçıvan Dövlət Universitetində "İnnovasiyalı-iqtisadiyyatda rəqəmsallaşma: rəqəmsal mühasibat uçotu, müasir maliyyə mexanizmləri, reallıqlar və perspektivlər" mövzusunda elmi-praktiki konfrans olub. Konfrans Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin akt zalında baş tutub. İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərovun moderatorluğu ilə keçən konfransda Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov, Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, nazir vəzifəsini icra edən Rahid Ələkbərli, rəsmi şəxslər, NDU-nun müəllim heyəti, həmçinin tələbələr iştirak ediblər.



Rektor Elbrus İsayev belə görüşlərin təşkilini yüksək qiymətləndirib, 2025-ci ildə daha çox bu yöndə tədbirlərin olacağını qeyd edib. Rektor dördüncü sənaye inqilabı dövründə müasir çağırışların rəqəmsal bacarıqları öyrənməyi və yararlanmağı tələb etdiyini vurğulayıb. Eyni zamanda Naxçıvan Dövlət Universitetinin də sürətlə rəqəmsallaşmağa doğru irəlilədiyinə diqqət çəkib. Elbrus İsayev bildirib ki, NDU bu yöndə ölkədə nümunəvi ali təhsil müəssisəsidir ki, ilk dəfə elektron təhsil sisteminə keçib, ölkədə ilk dəfə smart tələbə kartı "TələbəPlus"un istifadəsini tətbiq edib, tədris prosesi və elmi tədqiqatlarda hibrid təhsil qurulub, elmi əsərlər jurnalı elektronlaşıb. Rektor həmçinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində bu il reallaşacaq NDU-da İnnovasiyalar Mərkəzi barədə məlumat verərək, məqsədin ölkədə rəqəmsal bacarıqlara dair strategiyaya uyğun, əmək bazarının tələblərinə cavab verən, yenilikçi kadrlar hazırlamaq olduğunu qeyd edib.



Daha sonra Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov, Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Rahid Ələkbərli çıxış ediblər. Natiqlər Azərbaycan iqtisadiyyatında rəqəmsallaşmanın tətbiqi, bu sahədə statistik məlumatların, aparılan təhlillərin müsbət nəticələri, rəqəmsal maariflendirməyə göstərilən diqqət, rəqəmsal transformasiya, kibertəhlükəsizlik, süni intellekt və innovativ yeniliklərin qarşıya qoyduğu əsaslı çağırışlardan bəhs ediblər.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin "Mühasibat və maliyyə" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Teymur Abbasov "İnnovasiyalı iqtisadiyyatda rəqəmsal mühasibat uçotu: müasir reallıqlar və perspektivlər", Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Rəqəmsal texnologiyalar və tətbiqi informatika" kafedrasının professoru, iqtisad elmləri doktoru Rəsul Balayev "Rəqəmsal innovasiyaların prioritetləri", Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Zahid Qənbərov "Vergi xidmətində rəqəmsallaşma və innovativ xidmətlər" adlı məruzələr ətrafında çıxışlar edib, dayanıqlı iqtisadiyyatın təmin olunmasında rəqəmsallaşmanın rolundan danışıblar.

# Elbrus İsayev IELTS Mərkəzinin yetirməsi beynəlxalq FLEX proqramının qalibi Nuray Cabbarlını qəbul edib

Əvvəlcə rektor ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi FLEX proqramının qalibi olması münasibətilə N.Cabbarlını təbrik edib və gələcək təhsil həyatında uğurlar arzulayıb.

Rektor Elbrus İsayev qeyd edib ki, IELTS Mərkəzi Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq NDU-da yaradılıb. 2022-ci ilin aprel ayından etibarən Britaniya Şurası və Naxçıvan Dövlət Universitetinin əməkdaşlığı ilə fəaliyyətə başlayıb. Fəaliyyətə başladığı vaxtdan etibarən mərkəzdə 250-dən çox namizəd imtahan verərək rəsmi IELTS sertifikatı alıb. Mərkəz Naxçıvan Muxtar Respublikasının sakinləri, yaşayış yeri və vətəndaşlığından asılı olmayaraq, bütün namizədlər üçün rəsmi IELTS imtahanını əlçatan edir. IELTS Mərkəzi ilə yanaşı, universitetdə xarici imtahanlara, Amerika və Avropanın nüfuzlu universitetlərindəki təhsilə əlçatanlığı təmin etmək məqsədilə 2023-cü ildən SAT qeydiyyat və imtahan mərkəzi də fəaliyyət göstərir. Rektor vurğulayıb ki, hər iki mərkəz həm universitetin, həm də bütövlükdə regionun inkişafına öz töhfəsini verir.




Naxçıvan Qızlar Liseyinin XI sinif şagirdi Nuray Cabbarlı bildirib ki, beynəlxalq təhsil imtahanlarına hazırlıq mərhələsində Naxçıvan Dövlət Universitetinin IELTS Mərkəzinə müraciət edib. Mərkəzin koordinatoru Bayram Əliyevin rəhbərliyində ingilis dili biliklərinə yiyələnib, ingilis dilini möhkəmləndirib. Mərkəzdə IELTS və SAT imtahanlarına hazırlıq prosesi Nurayın ingilis dili biliklərini təkmilləşdirib və yekunda onun FLEX imtahanından uğurla keçməsinə köməklik göstərib.

Qeyd edək ki, Nuray Cabbarlı Amerikada yaşayan ailə tərəfindən qəyyumluğa götürüləcək və 1 il müddətində təhsilini orada davam etdirəcək.

# Naxçıvan Dövlət Universitetində yaz semestrinin ilk dərslərini şəhid ailələri və qazilər tədris edib









Ali təhsil ocağında artıq üç ildir ki, hər il yaz və payız semestrinin ilk dərs günü şəhidlərimizin şərəfli döyüş yoluna həsr olunur. Bu dəfə də universitetin bütün fakültələrində, universitet məzunları arasında şəhidlik zirvəsinə ucalan tələbələrin adını daşıyan auditoriyalarda ilk dərsləri vətən uğrunda canından keçən oğullarımızın ailə üzvləri tədris edib. Universitetə dəvət olunan 53 şəhid ailəsi və qazilər bütün kurslardan tələbələrə ərazi bütövlüyü və suverenliyimiz uğrunda canlarından keçən övladlarının həyatından, döyüş yolundan danışıblar. Bu dəfəki görüşdə şəhidlərin şərəfli ömür yolu ilə tələbələri yaxından tanış etmək, onların xatirəsini və bu yolda sağlamlığını itirən qazilərimizin fədakarlıqlarını əbədiləşdirmək məqsədi daşıyıb. Tədbirdə iştirak edən şəhid ailələri və qazilərə NDU adından hədiyyələr və güllər təqdim olunub. Sonda görüş iştirakçıları ilə xatirə şəkli çəkilib.

# Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunan tədbir keçirilib

Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımının 33-cü ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbirdə universitetin rəhbər heyəti, şöbə və fakültə rəhbərləri, əməkdaşlar, müəllim və tələbə heyəti iştirak ediblər.

Öncə universitetin İncəsənət fakültəsinin təşkil etdiyi rəsm sərgisinə baxış olub.

Tədbirdə Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.










Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olduğunu söyləyib, hadisənin səbəbi və nəticələri barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, Xocalı soyqırımına ilk dəfə hüquqi-siyasi qiymətin verilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun iradəsi və təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı tədbirlər görməyə çağırıb, eyni zamanda, bu gün də faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşasının mühüm vəzifə kimi qarşıya qoyulduğunu vurğulayıb. Rektor Elbrus İsayev xüsusilə gənclərin vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəsində ideologiyanın tarixi keçmişimizlə, dövlətimizin bu günü və gələcəyi ilə vəhdət olmağının, Xocalı soyqırımı və digər tarixi gerçəkliklərin gələcək nəsillərə ötürülməsinin vacibliyinə diqqət çəkib. Rektor Prezident İlham Əliyevin "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Sərəncamını qeyd edərək bildirib ki, bu gün suverenliyimiz tam bərpa edilib, torpaqlarımıza Böyük Qayıdışımız var və bu gün Xocalı qurbanlarının xatirəsi ildönümünü xalqımız qalib ölkə, qalib xalq kimi yad edir.

Naxçıvan Dövlət Universitetinin professoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli bildirib ki, Xocalı faciəsi bəşər tarixində misli görünməmiş qırğın olub. Erməni qəsbkarları 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfəri qətlə yetirib, onlardan 56 nəfəri xüsusi qəddarlıqla öldürüb. Professor 1275 insanın əsir və girov götürülərək işgəncələrə məruz qaldığını, daha yüzlərlə Xocalı sakinindən xəbər olmadığını vurğulayıb. Dövlətimiz tərəfindən ölkə daxilində və xaricdə Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaq istiqamətində həyata keçirilən ardıcıl tədbirlər, Heydər Əliyev Fondu tərəfindən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası barədə iştirakçıları məlumatlandırıb. Qeyd edib ki, 2020-ci il 44 günlük Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıqlar yarandı, "dəmir yumruq" qalib gəldi, Xocalı faciəsi qurbanlarının da qisası alındı. Professor Hacıfəxrəddin Səfərli vurğulayıb ki, Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Daha sonra Xocalı faciəsinə həsr olunan videoçarx izlənilib.

Tədbir bədii hissə ilə davam etdirilib. Bədii hissədə Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin müəllimləri Zakir Məmmədov, Əli Həsənov, İncəsənət fakültəsinin xor kollektivi, dirijor, Naxçıvan MR Əməkdar artisti Validə Hüseynova və ali təhsil ocağının tələbələri və Prezident mükafatçısı Samir İsmayılovun ifasında mahnılar, şeirlər səslənib, Xocalıda törədilən amansız qətliamlar bir daha xatırlanıb.

**Kifayət Mahmudova**

# Naxçıvan Dövlət Universitetində 2025-ci ilin ilk IELTS imtahanı keçirilib

2022-ci ildən fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetinin IELTS qeydiyyat və imtahan mərkəzi Azərbaycanın ali təhsil müəssisələri arasında ilk belə nümunədir. Mərkəz ingilis dili biliklərinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsini təmin etməklə yanaşı, namizədləri qlobal səviyyədə tanınan sertifikatlarla təmin edir. Həmçinin müəssisədaxili akkreditasiya və attestasiya proseslərində də mühüm rol oynayır. Fəaliyyətə başladığı dövrdən indiyədək mərkəz tərəfindən 11 imtahan keçirilib və bu imtahanlarda 250-dən çox iştirakçı qatılıb ki, onların böyük hissəsini universitetin müəllim və tələbələri təşkil edir.






2025-ci il yanvarın 15-16-da Naxçıvan Dövlət Universitetinin Xarici Dillər fakültəsində növbəti IELTS imtahanı təşkil olunub. İmtahan həm General IELTS, həm də Akademik IELTS üzrə keçirilib və ümumilikdə 19 nəfər iştirak edib. Namizədlərin dinləmə, oxu və yazı bacarıqları yanvarın 15-də, danışıq bacarıqları isə yanvarın 16-da qiymətləndirilib. İmtahan prosesində oxuma və dinləmə bölmələrinin sualları Britaniya Şurası tərəfindən hazırlanıb. Yazı və danışıq mərhələlərində istifadə olunan materialların tərtib olunması da bu qurumun məsuliyyətində olub.

Eyni zamanda Naxçıvan Dövlət Universiteti, Təhsilin İnkişafı Fondu və Təhsildə Keyfiyyət Təminatı Agentliyi arasında bağlanmış üçtərəfli sazişə əsasən IELTS imtahanında universitetin elmi-pedaqoji heyət üzvlərinin və təhsilalanların ümumi ortalama minimum 6.5 bal və daha yuxarı nəticə göstərənlərə ödənişlərin geri qaytarılması təmin ediləcək. Mərkəzin fəaliyyəti "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində atılmış vacib addımlardandır. Bu fəaliyyət gələcəkdə universitetdə daha çox və müxtəlif sahələr üzrə ingilis dili ixtisaslarının açılmasına, eləcə də kadr potensialının inkişafına töhfə verəcək. Belə bir mərkəzin fəaliyyəti, universitetin beynəlxalq rəqabət qabiliyyətinin artırılmasında və regionda ingilisdilli təhsilin inkişafında mühüm rol oynayır.

# NDU Elmi Kitabxanası ilə AMEA Mərkəzi Elmi Kitabxanası arasında əməkdaşlıq görüşü olub

Görüşdə NDU Elmi Kitabxanasının direktoru, əməkdaşları, eləcə də AMEA Mərkəzi Elmi Kitabxanasının rəhbərliyi – direktor, direktor müavinləri, şöbə müdirləri və elmi katib iştirak edib.

Görüşdə hər iki qurum arasında sıx əməkdaşlıq və tərəfdaşlıq imkanları müzakirə olunub.

NDU Elmi Kitabxanasının direktoru Xumar Məmmədova kitabxananın yaranması və fəaliyyəti haqqında məlumat verib. O, kitabxanada üç şəxsi fondun mövcud olduğunu və bu fondlar arasında AMEA-nın prezidenti İsa Həbibbəylinin şəxsi fondunun yer aldığını bildirib. Direktor lib.ndu.edu.az rəsmi saytından bəhs edərək burada Azərbaycan və xarici dillərdə geniş kitab bazasına giriş imkanı olduğunu vurğulayıb. Həmçinin, kitabxanada 47 könüllü tələbənin fəaliyyət göstərdiyini və onların müxtəlif yeni layihələr həyata keçirdiyindən bəhs edib və layihələr sırasında tələbələrin kitabları səsləndirərək audio formatda sayta yerləşdirilmələrinin xüsusi yer aldığını söyləyib. Onlayn əməkdaşlıq çərçivəsində Xumar Məmmədova AMEA nəşrlərinin və akademiyanın həqiqi və müxbir üzvlərinin əsərlərinin NDU Elmi Kitabxanasına göndərilməsi, elektron bazaya giriş imkanı verilməsi və kitab mübadiləsinin həyata keçirilməsi təkliflərini irəli sürüb.



AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov isə onlayn çıxış edərək rəhbərlik etdiyi kitabxana haqqında məlumat verib və kitab mübadiləsinin əhəmiyyətindən danışıb. O, AMEA-nın nəşrlərinin Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasına göndəriləcəyini və "Naxçıvan Biblioqrafiyası"nın təqdimatının burada keçirilməsinin planlaşdırıldığını bildirib. Hüseyn Hüseynov eyni zamanda AMEA Mərkəzi Elmi Kitabxanasının təşkil etdiyi təlimlərə NDU Elmi Kitabxanasının cəlb olunmasını və bu təşəbbüslərin elmi biliklərin yayılmasına və kitabxanalararası əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini qeyd edib.

# NDU-da "Bədən tərbiyəsi və idman günü" qeyd edilib

Naxçıvan Dövlət Universitetində Bədən Tərbiyəsi və İdman Günü münasibətilə geniş tədbir təşkil olunub.

Əvvəlcə universitetin Xarici dillər, Pedaqoji, İncəsənət, Tarix-filologiya, Beynəlxalq münasibətlər və hüquq, Fizika-riyaziyyat, Təbiətşünaslıq, Memarlıq və mühəndislik, Tibb fakültələri, eləcə də NDU nəzdində fəaliyyət göstərən İngilisdilli Gimnaziya, Tibb Kolleci, Texniki Kollec və Musiqi Kollecinin tələbələrinin parad düzülüşü keçirilib.





Universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov iştirakçıları əlamətdar gün münasibətilə təbrik edib. İdmanın gənclərin sağlam həyat tərzi və mənəvi-psixoloji inkişafında mühüm rol oynadığını vurğulayaraq tələbələrin Respublika birinciliyində və Olimpiada üzrə müxtəlif idman yarışlarında qazandıqları uğurlardan bəhs edib. Prorektor ölkəmizdə idmana göstərilən xüsusi diqqət və qayğının, həmçinin Prezident İlham Əliyevin bu sahədə imzaladığı fərman və sərəncamların ölkənin idman potensialının inkişafına böyük töhfə verdiyini bildirib.

Universitetin İdman Klubunun sədri Məmmədəli Rəhimov hər il tələbələr arasında müxtəlif idman yarışlarının təşkil olunduğunu qeyd edib və bu tədbirlərin tələbələrin fiziki hazırlığını artırmaq, idmana marağını yüksəltmək və sağlam həyat tərzini təşviq etmək məqsədi daşıdığını söyləyib.

Universitetin İqtisadiyyat və İdarəetmə fakültəsinin tələbəsi Qafar Hüseynov çıxış edərək karate-do idman növü üzrə Azərbaycan, Bolqarıstan, Türkiyə, Gürcüstan və İranda keçirilən bir sıra turnirlərdə, eləcə də ölkə səviyyəli yarışlarda qazandığı uğurlardan danışıb.

Daha sonra universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov əlamətdar gün münasibətilə Qafar Hüseynova idman sahəsində əldə etdiyi nailiyyətlərə görə təşəkkürnamə təqdim edib.

Tədbir çərçivəsində tələbələr milli güləş, cüdo, karate, boks, badminton, mini futbol və şahmat kimi idman növləri üzrə nümunəvi çıxışlar ediblər. Daha sonra XVI Universiadanın açılış mərasimi keçirilib və Tibb fakültəsi ilə Pedaqoji fakültənin qız tələbələri arasında voleybol yarışı təşkil olunub.

# Naxçıvan Dövlət Univesitetinin tələbəsi Şəhriyar Quliyev yeni uğurlara imza atıb






Tələbəmiz III Aqrar Startaplar və İnnovasiya Forumunda iştirak edərək AgroChat startapını kənd təsərrüfatı naziri Məcnun Məmmədova təqdim edib. Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığında keçirilən foruma Şəhriyar Quliyev "Enterprise Azerbaijan"ın qalibi kimi dəvət olunub.

Şəhriyar Quliyev Azərbaycanda ilk dəfə keçirilən Microsoft şirkətinin Startup Founders Hub tədbirində iştirak edərək Microsoftun Azərbaycan üçün təklifləri ilə yaxından tanış olub və tədbirdə "Microsoft" şirkətinin regional müşaviri Adrian Georq ilə fikir mübadiləsi aparıb.

Tələbəmiz, həmçinin ADA Universitetində 4SİM tərəfindən keçirilən "Sənaye 4.0 və əmək bazarının gələcəyi" mövzusunda keçirilən tədbirdə McKinsey & Company şirkətinin mütəxəssisləri ilə görüşüb və Asan Radioya müsahibə verib.

Bildirək ki, NDU-nun tələbəsi KOBSKA tərəfindən keçirilən Türk İşadamları ilə B2B görüşlərə dəvət alaraq bir sıra türk şirkətlərinin icraçı direktorları ilə "1-to-1" görüşlər keçirib.

*Nardanə Əliyeva*
***NDU, Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Naxçıvan Dövlət Universitetində yeni yaradılan "Qədim Xalq Çalğı Alətləri" Ansamblının təqdimatı keçirilib

Təqdimatdan öncə qədim xalq çalğı alətləri nümayiş etdirilib. Nəfəsli alətlər, tar, rud, bərbət, oğuz qopuzu, Naxçıvan tənburu, çəqanə, rübab, çəng, ud, qanun olmaqla 25-ən yaxın digər alət konsert iştirakçılarına təqdim edilib. Ardınca "Qədim musiqi alətlərinin təsviri rəssamlıq əsərlərində" adlı sərgiyə baxış keçirilib.









Konsertdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, universitetin rəhbər heyəti, müəllim və tələbələri, universitet nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin kollektivi iştirak ediblər. Naxçıvan Dövlət Universiteti və Musiqi Kollecinin müəllim və tələbələri tərəfindən təqdim edilən müxtəlif musiqi və rəqs nömrələri tamaşaçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb. "Şüştər rəngi", "Naxçıvan", "Alça gülü", "Sarı gəlin", "Gilənar", "Apardı sellər Saranı", "Güllü qafiyə" kimi musiqi kompozisiyaları xoş ovqat yaradıb. Qeyd edək ki, ansamblın bədii rəhbəri və yaradıcısı, konsertmeyster, tarzən, Musiqi Kollecinin müəllimi Fətəli Axundzadədir.

Sonda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konserti yüksək qiymətləndirib. Universitetin İncəsənət fakültəsinin və Musiqi Kollecinin muxtar respublikanın mədəni həyatında mühüm rol oynadığını vurğulayıb. Konsertlərin universitetin sənət ənənələrinə verdiyi töhfədən bəhs edib, ali təhsil ocağının ansambl və orkestrlərin paytaxtda və ölkədən kənarda baş tutan uğurlu çıxışlarını diqqətə çatdırıb. Rektor unudulmaqda olan qədim musiqi alətlərinin təmiri və təqdimatının gənc nəslə nümunə olduğunu bildirib. Elbrus İsayev kollektivi təbrik edib, onlara yeni nailiyyətlər arzulayıb.

**Fəxriyyə Səyyadova**

# Universitetdə "İnklüziv Təhsil Mərkəzi"nin açılışı olub

"İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi konfransı çərçivəsində Naxçıvan Dövlət Universitetinin İnklüziv Təhsil Mərkəzinin açılışı olub.

Açılışda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Fərid Bağırzadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Asəf Zamanov, Bakı Slavyan Universitetinin "Pedaqogika və psixologiya" kafedrasının müdiri Piralı Əliyev, Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Aygün Verdiyeva və digər konfrans nümayəndələri iştirak ediblər.











Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, İnklüziv Təhsil Mərkəzi bütün tələbələrin sosial-mədəni və fərdi xüsusiyyətlərinə, həmçinin ehtiyaclarına uyğun təhsil almasını təmin edəcək. Tələbələrin keyfiyyətli təhsilə çıxışı və mümkün ayrı-seçkiliyin azaldılması, mərkəzin əsas məqsədlərindəndir. Burada xüsusi qayğıya ehtiyacı olan tələbələrin inkişafı, hərtərəfli təlim dəstəyi sistemi, təhsil və reabilitasiya şəraiti yaradılıb. Gələcəkdə mərkəzin fəaliyyəti ilə bağlı daha geniş planlar nəzərdə tutulur.

Naxçıvan Dövlət Universitetinin İnklüziv Təhsil Mərkəzinin direktoru pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilov qonaqlara mərkəz haqqında məlumat verib, avadanlıqları təqdim edib.

Daha sonra rektor Elbrus İsayev konfransın təşkilində əməkdaşlıq edən dövlət qurumlarına və tərəfdaş universitetlərə plaketlər təqdim edib.

Sonda konfrans iştirakçıları NDU-nun Texnologiya Mərkəzində tələbələr tərəfindən hazırlanmış əl işləri ilə tanış olublar.

***Kifayət Mahmudova***
**NDU, Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri**

# Naxçıvan Dövlət Universitetində 8 Mart – Beynəlxalq Qadınlar Günü qeyd olunub

Tədbirdən öncə İncəsənət fakültəsinin qadın tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış olub. Sərgidə 50 kətan üzərində yağlı boya ilə çəkilmiş, 20 dekorativ tətbiqi sənət nümunələri olmaqla, ümumilikdə 70 rəsm əsəri nümayiş olunub.

Tədbirdə universitetin rəhbər heyəti, qadın əməkdaşları, NDU-nun Musiqi Kollecinin kollektivi və tələbələr iştirak ediblər.

Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov əlamətdar gün münasibəti ilə bütün qadınları təbrik edib. Ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin Azərbaycan qadınının ictimai-siyasi fəallığının inkişafına xüsusi önəm verdiyini vurğulayıb. Bildirib ki, universitetdə çalışan akademik heyətin 50 faizini qadınlar təşkil edir. Deməli, təhsil sahəsində gender bərabərliyini və həssaslığını təşviq edən tədris strategiyası tətbiq edilir. Prorektor eyni zamanda xanımların universitetin idarəedici heyətində də təmsil olunduğuna, qadın müəllimlərin nailiyyətlərinə diqqət çəkərək vurğulayıb ki, bunlar da qadınların uğurlarının bir başqa göstəricisidir. Elsevər Əsədov rektor Elbrus İsayevin müvafiq əmrinə əsasən Beynəlxalq Qadınlar Günü münasibəti ilə universitetin bütün xanım əməkdaşlarına pul mükafatının müəyyənləşdirildiyini də tədbir iştirakçılarının nəzərinə çatdırıb.





Daha sonra çıxışlar dinlənilib. "Fortepiano" kafedrasının müdiri, professor Səidə Məmmədova qadınların incəsənət sahəsində qazandıqları uğurlardan, "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva qadınların milli mətbuat tarixindəki xidmətlərindən, "Meliorasiya və ekologiya mühəndisliyi" kafedrasının baş müəllimi Leyla İbrahimova Azərbaycan qadınının cəmiyyətə verdiyi töhfələrdən söz açıblar.

Sonra tədbirin bədii hissəsi baş tutub. Əməkdar artistlər, Prezident mükafatçıları, İncəsənət fakültəsi və NDU-nun Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında rəngarəng konsert proqramı təqdim edilib. Pantomima ilə başlayan bədii hissə yeni yaradılan "Gənclik" instrumental ansamblı, "Belkanto" vokal qrupu, Naxçıvan Musiqi Kollecinin Saz qrupunun təqdimatında ifalarla davam edib. "Naxçıvani" rəqsi, "Ana", "Ay Güləbatın", "Sevdiyim qız","İntizar", "Qonşu qız" və digər mahnılar xoş ovqat yaradıb.

Qeyd edək ki, konsertin bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovadır.

# Yeni işıq üzü görmüş kitabların təqdimat mərasimləri olub

***"Yüz ilin Naxçıvanı" adlı kitabın təqdimatı***




Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Şərq qapısı" qəzetinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru, "Bələdiyyə və turizm" kafedrasının dosenti Əli Cabbarovun "Yüz ilin Naxçıvanı" adlı kitabının təqdimatı keçirilib.

Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov təqdimatı açaraq bildirib ki, dövlət başçısı cənab İlham Əliyevin Sərəncamı ilə 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi qeyd olunub. O qeyd edib ki, yubiley ilinə töhfə olaraq Əli Cabbarovun hazırladığı bu kitabda



müəllifin muxtar respublikanın tarixi, həmçinin iqtisadi, sosial və mədəni inkişafı, eləcə də dövlət başçımızın apardığı uğurlu daxili və xarici siyasətlə bağlı "Şərq qapısı" qəzetində, ABŞ-da, eləcə də digər mənbələrdə çap olunmuş məqalələri toplanıb.

Təqdimatda çıxış edən universitetin "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva, "Şərq qapısı" qəzetinin baş redaktor müavini Məmməd



Babayevin ön söz yazdığı və ötən ilin dekabrında "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş "Yüz ilin Naxçıvanı" adlı kitabda toplanmış məqalələrin əhəmiyyətinə, onların publisistik üslubuna toxunub.

Universitetin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov, "Bələdiyyə və turizm" kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Flora Kərimova və kafedranın baş müəllimi Günel İsayeva təqdimatda çıxış edərək 100-ə yaxın elmi əsərin müəllifi olan Əli



Cabbarovun iqtisadiyyat və turizm sahəsindəki uğurlu tədqiqatlarını diqqətə çatdırıb, ona yeni elmi və yaradıcılıq uğurları arzulayıblar.

Təqdimat tədbirində çıxış edən universitetin qocaman əməkdaşlarından fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev və Xarici dillər fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli Əli Cabbarovun elmi araşdırmaçı və jurnalist fəaliyyəti ilə bağlı gördüyü işlərdən danışıb, müəllifə yeni uğurlar arzu ediblər.

Tədbirdə çıxış edən Şahbuz rayon Kükü kənd tam orta məktəbinin təqaüdçü müəllimi Yunis Quliyev ötən ilin onlar üçün də əlamətdar olduğunu, Kükü məktəbinin 100 illik yubileyinin dövlət səviyyəsində keçirildiyini, təqdimatı keçirilən bu kitabda həmin yubileylə bağlı beş məqalənin də yer aldığını diqqətə çatdırıb. Daha sonra çıxış edənlərdən biologiya üzrə fəlsəfə doktoru, universitetin "Biologiya" kafedrasının müəllimi, "Şərq qapısı" qəzetinin əməkdaşı Turan Məmmədli və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev 10 kitabın, 1400-ə yaxın publisistik yazının müəllifi olan Əli Cabbarova daha böyük uğurlar arzu ediblər.

Sonda tədbir iştirakçılarına təşəkkür edən müəllif səmərəli fəaliyyət üçün yaradılmış şəraitə görə minnətdarlığını ifadə edərək yeni kitabını və "Zəngəzura salam olsun" kitabını oxuculara hədiyyə edib.

***

***Naxçıvan Dövlət Universitetində tibb sahəsinə dair dərs vəsaiti işıq üzü görüb***

"Klinik fənlər və hərbi tibb" kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Sabir Novruzovun "Bağırsaq Keçməzliyi Sindromu" adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib.

Ali təhsil ocağının Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov elm sahəsində yeni nəşrlərin çap olunmasını akademik heyət və tələbələr üçün mühüm töhfə kimi dəyərləndirib. Qeyd olunub ki, bu gün təqdim edilən dərs vəsaiti də tibb tələbələri və bu sahədə fəaliyyət göstərən mütəxəssislər üçün vacib mənbədir.



Tibb fakültəsinin dekanı vəzifəsinin müvəqqəti icraçısı, biologiya elmləri doktoru, dosent Ənvər İbrahimov bildirib ki, kitab yığcam və sxematik tərtib edilərək tədris proqramına uyğun hazırlanıb. Diqqətə çatdırılıb ki, dərs vəsaitindən ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı və onkoloji xəstəliklər fənlərini tədris edən müəllimlər, o cümlədən ümumi cərrahlar, yaxın sahələrin mütəxəssisləri də istifadə edə bilərlər.

"Klinik fənlər və hərbi tibb" kafedrasının professoru İsa Abdullayev qeyd edib ki, vəsaitdə nazik və yoğun bağırsağın keçməməzlik ilə ağırlaşan anomaliyaları, inkişaf qüsurları, cərrahi xəstəlikləri, xoş və bədxassəli şişləri, bağırsağın cərrahi əməliyyatlarından sonrakı patoloji vəziyyətləri, eyni zamanda onların epidemiologiyası, klinikası, müasir diaqnostikası və bir sıra mühüm məsələlər öz əksini tapıb.

"Klinik fənlər və hərbi tibb" kafedrasının dosenti Cəbi İsmayılov 21 başlıqdan ibarət dərs vəsaitinin mövzu başlıqlarına uyğun cərrahi əməliyyat şəkilləri və sxemlərlə zəngin tərtibatından bəhs edib.



"Klinik fənlər və hərbi tibb" kafedrasının müdiri, dosent Gültəkin Əliyeva bildirib ki, kitabın tədris prosesində mövzunun öyrənilməsi və mənimsənilməsi üçün tələbələrin qarşılarına çıxacaq çətinlikləri aradan qaldırmaq üçün mühüm məlumatlar toplusudur.

Çıxış edənlər müəllifi təbrik edib, elmi fəaliyyətində davamlı uğur arzu ediblər.

Sonda müəllif dərs vəsaitinin ərsəyə gəlməsində göstərilən diqqətə görə universitet rəhbərliyinə minnətdarlıq edərək tədbir iştirakçılarına səmimi təşəkkürünü çatdırıb.

***

***NDU-da ingilis dilində hazırlanmış "Economics A-Z" kitabının təqdimatı keçirilib***




Universitetin Elmi Kitabxanasında "İqtisadiyyat və marketinq" kafedrasının müəllimi Elşən Nəsirovun ingilis dilində hazırladığı "Economics A-Z. Mikro və makroiqtisadiyyatın əsas terminlərinin izahlı lüğəti" adlı kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə kitabın geniş oxucu auditoriyası üçün nəzərdə tutulduğunu və "İqtisadiyyat" ixtisasında təhsil alan tələbələrin ixtisaslarına uyğun olaraq beynəlxalq standartlara uyğun kadr olaraq formalaşmalarında bu vəsaitin



əhəmiyyətli olacağını bildirib.

Daha sonra çıxış edənlər İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov, "Beynəlxalq ticarət və menecment" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov kitab haqqında fikirlərini bölüşüblər.

Sonda çıxış edən Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat və Marketinq" kafedrasının müəllimi Elşən Nəsirov bildirib ki, lüğət xüsusilə Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat" ixtisasında təhsil alan tələbələr




üçün nəzərdə tutulub və onların iqtisadi terminologiyanı dərindən öyrənərək müasir bazar subyektlərinin fəaliyyətini anlamaqlarına dəstək olur. Diqqətə çatdırılıb ki, mallar, xidmətlər, qiymətli kağızlar, valyuta və digər bazar iştirakçılarının fəaliyyətini əhatə edən lüğət həm də mütərəqqi islahatların tələblərinə uyğun nəzəri və praktiki biliklərin mənimsənilməsinə imkan yaradır. Bu resurs iqtisadiyyat üzrə beynəlxalq standartlara uyğun kadr hazırlığına da əhəmiyyətli töhfə verəcəkdir.

***

***"Naxçıvan dilçilik məktəbi" adlı kitabın təqdimatı keçirilib***




NDU Elmi Kitabxanasında AMEA-nın müxbir üzvü, "Azərbaycan dilçiliyi" kafedrasının professoru, filologiya elmləri doktoru Əbülfəz Quliyev və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda "Terminologiya" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sayalı Sadıqovanın müəllifi olduqları "Naxçıvan dilçilik məktəbi" adlı kitabın təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov son dövrlər dilçilik sahəsində aparılan tədqiqatların səmərəliliyindən və bu sahədə ərsəyə gətirilən monoqrafiyaların elmi dəyərindən bəhs edib.



Daha sonra "Azərbaycan dilçiliyi" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elburus Vəliyev, "Azərbaycan dilçiliyi" kafedrasının dosenti, filologiya elmləri doktoru Qalibə Hacıyeva, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Dilçilik" şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Nuray Əliyeva və digər çıxışçılar təqdimatı keçirilən kitab haqqında fikirlərini səsləndiriblər.

Sonda çıxış edən AMEA-nın müxbir üzvü, "Azərbaycan dilçiliyi" kafedrasının professoru, filologiya elmləri doktoru Əbülfəz Quliyev göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə öz minnətdarlığını bildirib.

# "İnsan ürəyi ilə Heydər Baba" kitabının təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında türkiyəli alim, Türkiyə Radio-Televiziya Qurumunun müxbiri Aysel Sadak İltaşın Ulu Öndər Heydər Əliyevə həsr olunmuş "İnsan ürəyi ilə Heydər Baba" kitabının təqdimat mərasimi keçirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, bu nəşr Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini dərin insani keyfiyyətləri ilə birlikdə təqdim edən dəyərli bir əsərdir. Kitabda Ulu Öndərin dövlətçilik prinsipləri, onun müdrik siyasəti və xalqına olan sonsuz sevgisi müxtəlif rakurslardan əks olunub. Rektor qeyd edib ki, kitabda tanınmış alimlərin, ictimai-siyasi xadimlərin və görkəmli ziyalıların Heydər Əliyev haqqında düşüncələri, onunla bağlı xatirələri toplanıb. Nəşr həmçinin Ulu Öndərin ideyalarının bu gün də aktuallığını qoruyub saxladığını və yeni nəsillər üçün örnək olduğunu nümayiş etdirir. Elbrus İsayev vurğulayıb ki, "İnsan ürəyi ilə Heydər Baba" kitabının Naxçıvan Dövlət Universitetinin kitabxana fondlarında yer alması qürurvericidir və bu nəşrin tələbələr üçün dəyərli elmi mənbə olacağını, Ümummilli Lider Heydər Əliyevin zəngin irsi ilə bağlı tədqiqat aparan gənclər üçün etibarlı istinad qaynağı rolunu oynayacağını bildirib.







Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev kitabın Ulu Öndər Heydər Əliyevin şəxsiyyətini, onun yüksək insani keyfiyyətlərini və xalqımıza verdiyi dəyəri geniş şəkildə işıqlandırdığını bildirib. Akademik qeyd edib ki, bu nəşr Heydər Əliyevin şəxsiyyətini dərindən öyrənmək və onunla bağlı tədqiqatlar aparmaq istəyənlər üçün əvəzsiz bir mənbədir. Kitabda dahi liderin həyatına və irsinə dair dəyərli fikirlər, xatirələr və təhlillər toplanıb. Daha sonra İsmayıl Hacıyev müəllifə minnətdarlığını ifadə edərək kitab hədiyyə edib.

Naxçıvan Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının dosenti, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Emin Şıxəliyev, kitabın Heydər Əliyevin çoxşaxəli həyat və fəaliyyətindən bəhs edən dəyərli əsər olduğunu qeyd edib. O, universitetdə "Heydər Əliyev ili" çərçivəsində müxtəlif tədbirlərin keçirildiyini, Ulu Öndərlə bağlı monoqrafiya və kitabların nəşr olunduğunu diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfulla Qurbanov çıxışında Ulu Öndərin Naxçıvana gəldiyi dövrdən bəhs edərək ölkəmizə və xalqına olan sonsuz sevgisini vurğulayıb və onunla bağlı xatirələrini bölüşüb. Urfulla Qurbanov Heydər Əliyevin liderliyinin çətin günlərdə xalq üçün böyük dayaq olduğunu xüsusi qeyd edib.

"Sirab" Açıq Səhmdar Cəmiyyətinin İdarə heyətinin sədri Namiq Novruzov Heydər Əliyevin ölkəmizin inkişafında və sənaye sahəsindəki müstəsna rolunu vurğulayaraq Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın iqtisadiyyatında böyük irəliləyişlər əldə edildiyini qeyd edib.

Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya çıxışında "İnsan ürəyi ilə Heydər Baba" kitabının müəllifini təbrik edib, onun Ulu Öndər Heydər Əliyevin irsini dərindən araşdıraraq dəyərli bir əsər ərsəyə gətirdiyini vurğulayıb. O qeyd edib ki, bu kitab Ulu Öndərin şəxsiyyətini və fəaliyyətini gələcək nəsillərə çatdırmaqda əvəzsiz rol oynayacaq.

Kitabın müəllifi Heydər Əliyevdən müsahibə alarkən yaşadığı unudulmaz xatirələrdən söz açıb, onun dərin zəkası, müdrikliyi və insanlara olan isti münasibətindən bəhs edib. O, müsahibə zamanı Ümummilli Liderin ölkənin inkişafı və gələcək nəsillərə olan tövsiyələri barədə fikirlərini qələmə almasının qürurverici olduğunu bildirib. Daha sonra müəllif universitetin rektoru Elbrus İsayevə göstərilən dəyər və diqqətə görə minnətdarlığını ifadə edib və universitetin Elmi Kitabxanasına "İnsan ürəyi ilə Heydər Baba" kitablarını hədiyyə edib.

Tədbirin sonunda rektor Elbrus İsayev Aysel Sadak İltaşa Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə NDU tərəfindən nəşr olunan "Elmi əsərlər"in xüsusi buraxılışını, həmçinin "Həyat yolu 1993-2003" və "Naxçıvan: dörd fəsildə" kitablarını təqdim edib.

## "Vətən" layihəsinin rəhbəri Aydın Tağıyevin təlimi və kitablarının təqdimatı olub






Ali təhsil ocağının Magistratura və Doktorantura Mərkəzində yazıçı-jurnalist, publisist, "Vətən" layihəsinin rəhbəri Aydın Tağıyev "Milli dəyərlər və vətəndaşlıq" layihəsi və onun əhəmiyyəti barədə tələbələrə maarifləndirici təlim keçib. Giriş sözü ilə çıxış edən universitetin Elmi Kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədova "Vətən" layihəsinin cəmiyyət üçün əhəmiyyətindən bəhs edib, bu təşəbbüsün gənclərin vətənpərvərlik duyğularının inkişafına müsbət təsir etdiyini vurğulayıb.

Təlimçi Aydın Tağıyev "Vətən" layihəsinin artıq üç ildir fəaliyyət göstərdiyini qeyd edərək bu təşəbbüsün heç bir maddi mənfəət güdmədən vətənpərvər könüllülərin fədakarlığı sayəsində həyata keçirildiyini bildirib. Layihənin əsas məqsədinin şəhidlərimizin əziz xatirəsini daim yaşatmaq, gələcək nəsillərə ötürmək və unudulmasının qarşısını almaq olduğunu vurğulayıb. Həmçinin milli dəyərlərin qorunması, gənclərin vətəndaşlıq hisslərinin inkişaf etdirilməsi məsələlərindən söz açıb. Təlim çərçivəsində gənclərlə milli kimlik, vətən sevgisi və vətəndaş məsuliyyəti mövzularında fikir mübadiləsi aparılıb.

Bakı Xoreoqrafiya Akademiyasının Kitabxana İnformasiya mərkəzinin direktoru İradə Ağayeva milli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsində kitabxanaların və maarifləndirmə işinin təşkilinin vacibliyini vurğulayıb.

Təlim çərçivəsində universitetin Elmi Kitabxanasında yazıçı Aydın Tağıyevin vətənpərvərlik mövzusuna həsr olunan "Böyük Zəfərin 101 şəhidi", "Fədakarlar Bir Amalın Uğrunda" və ilk dəfə Naxçıvan Dövlət Universitetində təqdim edilən fəlsəfi əsəri "Bir Milyon Zəkanın Şifrəsi" kitablarının təqdimatı olub. Elmi Kitabxananın direktoru Xumar Məmmədova şəhidlərə dair kitabların universitetdə təqdim edilməsinin əhəmiyyətini vurğulayıb. O, "Şanlı Zəfərimiz" adlı kitab guşəsinin yaradıldığını, "Zəfər Qəhrəmanlarımızı Tanıdaq" layihəsi çərçivəsində görülən işləri və semestrin ilk dərslərində şəhid ailələrinin iştirakını qeyd edib.

Şəhid Raqib Hüseynovun anası Rəna Hüseynova, layihənin koordinatoru pedoqoq, yazar, tədqiqatçı-jurnalist Günel Şəmilzadə və BXA-nın Kitabxana İnformasiya mərkəzinin direktoru İradə Ağayeva şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, vətənpərvərlik ruhunun gənclərə aşılanması və milli dəyərlərimizin qorunmasının önəmini qeyd ediblər.

Sonda müəllif göstərilən diqqət və qayğıya görə iştirakçılara öz minnətdarlığını bildirib.

**Nardanə Əliyeva**
**NDU-nun Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

## "İNKİŞAF İQTİSADİYYATI" KİTABININ TƏQDİMATI



Universitetin Elmi Kitabxanasında "İqtisadiyyat və marketinq" kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Həvva Adıgözəlovanın müəllifi olduğu "İnkişaf iqtisadiyyatı" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Naxçıvan Dövlət Universitetinin rektor müşaviri (iqtisadi məsələlər üzrə) Ülvi Baxışlı tədbiri giriş sözü ilə açaraq bildirib ki, iqtisadiyyatın bir çox sahələrindən fərqli olaraq, inkişaf iqtisadiyyatı yanaşmaları konkret planlar hazırlamaq üçün sosial və siyasi amilləri özündə birləşdirir. Diqqətə çatdırılıb ki, iqtisadiyyatın bir çox digər sahələrindən fərqli olaraq tələbələrin nəyi bilməli olduğuna dair konsensus yoxdur.

Sonra İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov, "İqtisadiyyat və marketinq" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Eltun İbrahimov, "Beynəlxalq ticarət və menecment" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov, "İqtisadiyyat və marketinq" kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Turqan Babayev və başqaları çıxış edərək dərslik haqqında öz fikirlərini bölüşüb, müəllifə fəaliyyətində uğurlar arzulayıblar.

## NDU-da "Slavyan xalqları tarixi" adlı kitabın təqdimatı keçirilib







Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Ümumi tarix" kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Ruhiyyə Rzayevanın "Slavyan xalqları tarixi" adlı dərs vəsaitinin təqdimatı olub. Tədbiri giriş sözü ilə açan universitetin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov rəhbərlik etdiyi fakültənin son dövrlər əldə etdiyi elmi nailiyyətlərindən bəhs edib. Dekan müəllimlərin tədris etdiyi fənlərə uyğun olaraq tədris vəsaitlərini yazmaqlarını yüksək qiymətləndirib.

Daha sonra universitetin "Ümumi tarix" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov, kafedranın dosentləri İsmayıl Zeynalov, Abdulla Mustafayev və digər çıxışçılar kitabın elmi dəyərindən bəhs edərək müəllifə uğurlar arzulayıblar.

Sonda müəllif Ruhiyyə Rzayeva göstərilən diqqət və qayğıya görə iştirakçılara öz minnətdarlığını bildirib.

# Naxçıvan xanlarının ruhunu yaşadan saray – Xan Sarayı



Mən Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Muzey, arxiv işi və abidələrin qorunması ixtisasının Gədəbəy rayonundan olan tələbəsi kimi Naxçıvanı yaxından tanımaq və kəşf etmək üçün bu gözəl diyarın tarixi abidələrini və muzeylərinə ekskursiya etməyə başladım. İlk səfərim gəzib-gördüyüm, axtarıb-araşdırdığım ən gözəl saray komplekslərindən biri olan Naxçıvan şəhərində yerləşən və XVIII əsrə aid tarixi-memarlıq komplekslərindən biri olan Xan Sarayı memarlıq abidəsinədir.

Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Sarayı xüsusilə diqqətəlayiq edən onun həm mədəni, həm də sosial həyatdakı rolu ilə yanaşı, ərazisindəki bəzi digər mühüm abidələrlə olan əlaqəsidir. Saray tarixdə bir neçə dəfə yenilənmiş və təmir olunmuş, zamanla bir çox müharibələrə, zəlzələlərə və digər təbii fəlakətlərə məruz qalmışdır. Lakin hər dəfə bərpa edilərək Naxçıvanın simvolik bir abidəsinə çevrilmişdir.

Müasir zamanda Naxçıvan Sarayı həm yerli sakinlər, həm də turistlər üçün əhəmiyyətli bir mədəniyyət ocağıdır. Bu sarayın memarlıq xüsusiyyətləri, daxilindəki heykəllər, naxışlar və digər dekorativ elementlər onu müasir dövrün ən gözəl tarixi abidələrindən birinə çevirir. Sarayın içindəki otaqlar və zallarda Naxçıvanın qədim dövrlərinə aid sənət əsərləri, əşyalar və digər tarixə aid kolleksiyalar da nümayiş olunur. Bu, şəhərin tarixi və mədəni irsinin qorunması üçün böyük bir addım olmaqla yanaşı, regionun tarixi dəyərlərinin dünyaya tanıdılmasına da xidmət edir.

Naxçıvan Sarayı həmçinin turizm üçün mühüm bir cəlb nöqtəsidir. Ziyarətçilər buraya yalnız tarixi abidə kimi deyil, həm də Naxçıvanın zəngin mədəniyyəti və irsi ilə tanış olmaq üçün gəlirlər. Sarayın möhtəşəmliyi və tarixi əhəmiyyəti, onu yalnız Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın dəyərli mədəni irsinin bir hissəsi edir. Buna görə də Naxçıvan Saray yalnız bir memarlıq əsəri deyil, eyni zamanda tarixə şahidlik edən, xalqın mədəniyyətini və keçmişini yaşadan simvoldur. Buna görə də həm yerli, həm də xarici turistlər üçün vacib bir ziyarət məkanı olaraq qalır.

Saray Qədim Qala məhəlləsində, Möminə Xatun türbəsinin 50-60 metrliyində inşa edilmişdir. Bişmiş kərpicdən tikilmiş, pəncərələrdə şəbəkə üslubundan, otaqlarda qədim Naxçıvan yaşayış evlərinə xas taxça formalarından geniş istifadə olunmuşdur. Binanın yüksək təpə üzərində inşa edilməsi onu son dərəcə əzəmətli və gözəl göstərir.

Xan Sarayı saray kompleksinin qərbində, xan dikinin relyefinə uyğun olaraq üzü güncıxana tərəf inşa edilmişdir. Xan Sarayı kompleksində yardımçı bina, yeni inşa olunmuş hovuz, su quyusu, yaşıllıq zolaqları, bəzək və meyvə ağacları var. Bina iki mərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Hal-hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə olunur. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxarıldığı üçün binaya xüsusi gözəllik verir. Dəhlizlərə qırmızı qum daşı ilə döşənmiş pilləkənlərlə qalxılır. Pilləkənlərin ətrafı kərpiclə hörülüb və ağac məhəccərlərlə bərkidilib.

Birinci mərtəbədə 3 otaq, ikinci mərtəbədə 8 otaq və 2 mansar yerləşir. Hər iki mansardan dəhlizlərin üstündəki açıq balkonlara çıxış var. Mansarlara vestibüllərdən açılmış kərpic pilləkənlərlə qalxılır. Xan Sarayının cənub zalı daha dəbdəbəlidir. Qonaq qəbulu üçün nəzərdə tutulmuş zalın qərbində səhnə tipli taxt yaradılmışdır. Taxtlı guşənin açılan pəncərələri yerdən tavana qədər şəbəkələrlə, tavanı isə kiçik güzgü parçaları ilə bəzədilmişdir. Zalda XVIII əsrə aid silahlar da vardır. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş.

Muzey 8 zaldan ibarətdir, bunlardan biri Naxçıvan xanlarına həsr olunmuşdur. Yarandığı vaxt muzeydə 359 eksponat qeydə alındığı halda, hazırda onların sayı 2000-dən artıqdır. Burada, demək olar, bütün xalça növləri – xovlu və xovsuz kimi xalçalar nümayiş etdirilir. Muzeydə Gəncə-Qazax, Quba-Şirvan, Qarabağ, Təbriz-Naxçıvan xalçaçılıq məktəblərinə XVIII-XIX əsrlərə aid xalça nümunələri saxlanılır. Muzeydə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin portreti toxunmuş xalça, "Leyli və Məcnun", "Qarabağ mənzərəsi" kimi xalçalar qorunub mühafizə olunur. Muzeydə məişət əşyaları – misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

Sarayın həyətinə iki qapı açılır – biri sağa, digəri sola. Hər qapının arxasında otaqlar vardır. Otaqların tavanı çatma tağ formasındadır. İnşa olunduğu vaxtdan etibarən bu otaqlardan Saray xidmətçilərinin yaşayış yeri, ərzaq anbarı və mətbəx kimi istifadə olunurmuş. Hazırda burada Açıq Səma Altında Muzeyin inzibati binası və hədiyyələr mağazası yerləşir.

Muzeyi ziyarət edən zaman özümü sanki XVIII əsr xanlıqlar dövründə hiss edirdim. Çox səliqə ilə mühafizə olunan muzey, eyni zamanda, güləruz bələdçiləri ilə də yaddaşımda qaldı. Naxçıvanda təhsil aldığım müddətdə buranı qarış-qarış gəzib, tarixini yaxından öyrənib, tarixi-memarlıq abidələrini ziyarət etmək əsas arzularımdandır.

**İntiqam Hüseynov**
**Muzey, arxiv işi və abidələrin qorunması ixtisası üzrə II kurs tələbəsi**

# Kitabxana




Kitabxanalar hər zaman bilik və mədəniyyətin qoruyucusu olmuşdur. Bədii, elmi, psixoloji və s. növdə olan kitabları özündə birləşdirərək insanın zəkasının sərhədlərini aşmağa, özünü kəşf etməyə və yeni ideyalar yaratmağa imkan yaradır. Bir tələbə olaraq ən çox üz tutduğum məkanlardan biri də Naxçıvan Dövlət Universitetinin kitabxanasıdır. Həm sakit, həm də rahat oxuma mühiti ilə təmin edildiyindən əksər vaxtlarımı orada keçirirəm. Kitabxanamız tələbələri dərs materialları, mühazirə mətnləri, dərsliklər, elmi jurnallar və digər akademik resurslarla təmin edir. Tələbələr burada dərslərinə aid mövzularla əlaqəli kitablar və məqalələr tapa bilərlər. Həmçinin NDU kitabxanası yalnız tələbə və müəllimlər üçün deyil, cəmiyyətin hər bir üzvü üçün açıqdır.

Son illərdə universitet kitabxanasında müxtəlif layihələrə, tədbirlərə, kitab müzakirələrinə, təlimlərə və kurslara xüsusi diqqət göstərilir. Universitet kitabxanasında keçirilən ödənişsiz kompüter və ingilis dili kursları da məhz belə təşəbbüslərdən biridir. Kitabları, elmi mənbələri əldə etmək və digər beynəlxalq platformalara çıxış etmək üçün ingilis dilinin imkanları daha geniş və perspektivlidir. 2023-cü ildən keçirilməyə başlayan bu kurslara dil bacarıqlarını müntəzəm şəkildə artırmaq üçün keçirilən danışıq kursları, IELTS (International English Language Testing System) imtahanına hazırlıq məşğələləri daxildir. Hal-hazırda həftədə 3 dəfə olmaqla kurslar həyata keçirilir.

Kurslar ingilis dili biliklərini təkmilləşdirmək istəyən hər bir tələbə üçün açıqdır və onlara dil bacarıqlarını inkişaf etdirmək üçün praktiki imkanlar təqdim edir. Bu kursları keçirən şəxslərdən biri də NDU Xarici dillər fakültəsində İngilis dili müəllimliyi ixtisası üzrə təhsil alan və dil öyrənməyə böyük həvəsi olan Arzu Hüseynova adlı tələbəmizdir. Arzu həmçinin tələbələrə həm nəzəri, həm də praktiki sürətdə ingilis dili bacarıqlarını qazandırmağa böyük maraq göstərir. Kursun necə keçirildiyini və iştirakçılara hansı imkanlar təqdim edildiyini daha ətraflı anlamaq üçün onunla görüşdük.

Arzu qeyd edir ki, mən uşaqlıqdan ingilis dili öyrənməyə böyük maraq göstərmişəm. Bu dilin həm şəxsi, həm də peşəkar həyatımda mənə böyük faydalar gətirəcəyini düşünmüşəm. Universitetdə təhsil alarkən bu bacarıqlarımı daha da təkmilləşdirmək üçün universitetimizin kitabxanası ilə əməkdaşlıq edərək tələbələrə ingilis dilini öyrətmək üçün ödənişsiz kurslar təşkil etməyə başladım.

Müsahibim onu da əlavə etdi ki, kurslar, əsasən, universitet tələbələrinə yönəlib, amma hər yaş kateqoriyasında olan insanlar da qatıla bilər. Məqsədimiz dil bacarıqlarını inkişaf etdirmək istəyən hər kəsə kömək etməkdir. Hətta dil öyrənmə prosesini əyləncəli və interaktiv etmək üçün müxtəlif müzakirələr, conversation clublar və film saatları da təşkil olunur. Bu, onların daha tez və effektiv öyrənmələrinə kömək edir. Universitet kitabxanasında təşkil olunan bu kurslar tələbələrə yalnız dil bacarıqlarını inkişaf etdirmək imkanı yaratmır, həm də onların akademik və professional həyatlarında uğur qazanmalarına kömək edir. Bu cür təşəbbüslər universitetin təhsil və sosial bacarıqlara verdiyi önəmi göstərir.

**Səmayə Rəsulova**
**Jurnalistika ixtisası üzrə III kurs tələbəsi**

# SEVGİYƏ HƏSRƏT UŞAQLAR

İnternat məktəbi adını eşidəndə bir çox insanın zehnində fərqli təsəvvürlər yaranır. Kimisi bu yerləri sosial qayğı mərkəzləri kimi görür, kimisi isə orada yaşayan uşaqların yetim və ya kimsəsiz olduğunu düşünür. Lakin unutmayaq ki, internat məktəblərində təhsil alan hər bir uşaq, istisnasız olaraq, bizim cəmiyyətimizin bir hissəsidir. Onlar "özgə uşağı" deyil, bizim övladlarımızdır.

Bu məktəblərdəki uşaqların həyat hekayələri müxtəlifdir. Kimisi ailəsinin maddi çətinlikləri səbəbilə buraya düşüb, kimisi isə valideynlərin məsuliyyətsizliyi və hətta laqeydliyi ucbatından. Çoxları üçün internat məktəbi həm sığınacaq, həm də gələcəyə ümid yeridir. Lakin gəlin etiraf edək ki, bu uşaqların burada olmalarının əsas səbəbkar çox vaxt valideynləridir.



Bir uşaq dünyaya gələndə onun əsas ehtiyacı sevgi, qayğı və diqqətdir. Valideynlər isə bu ehtiyacları ödəmək üçün ən böyük məsuliyyət daşıyan insanlardır. Amma bəzən bu məsuliyyətin yerinə yetirilmədiyi hallarla qarşılaşırıq. Maddi çətinliklər səbəbindən uşağını internat məktəbinə verənlər ola bilər, amma bəzən sadəcə şəxsi azadlıq axtarışı və ya uşağın qayğısına qalmaq istəməmək kimi amillər də rol oynayır. Bu, uşağın üreyində silinməz izlər buraxır.

İnternat məktəblərində yaşayan uşaqlarla danışanda onların gözlərindəki qüssəni hiss etməmək mümkün deyil. Onlar da digər uşaqlar kimi ailə istiliyi, ata-ana məhəbbəti arzulayır. Hər dəfə valideynlərlə görüş günü gəldikdə həsrətlə gözləyən, amma heç kimin gəlmədiyini görən uşaqlar da var. Onların iç dünyasında baş verən şimşəkləri təsəvvür etmək belə çətindir. Bəs biz bu uşaqların hansı günahına görə onları sevgidən məhrum edirik?

Hər birimizin üzərinə düşən məsuliyyət var. Bu uşaqları özümüzdən ayırmamaq, onlara sevgi ilə yanaşmaq. Onlara "özgə uşağı" kimi baxmaqdan vaz keçməliyik. Çünki, cəmiyyətimizin sağlam gələcəyi üçün hər bir uşaq dəyərlidir. İnternat məktə-bində təhsil alan uşaqlara qarşı anlayışlı, mərhəmətli və dəstəkverici olmaq, onların həyatında müsbət dəyişikliklər yarada bilər. Onlar özlərinə inamı yalnız bizim göstərdiyimiz diqqət və dəstəklə qazana bilərlər.

Bu məqaləni oxuyan hər kəsdən bir şey rica edirəm: belə uşaqlara biganə qalmayın. Onları dinləyin, dəstək olun. Valideynlərə isə bir çağırış etsək, yaxşı olar ki, övladlarınıza sahib çıxın, onların ən böyük ehtiyacı sevginizdir. Onları bu sevgidən məhrum etməyin. Çünki uşaqların qəlbindəki ən dərin yaralar valideynlərindən görmədikləri sevgi ilə açılır.

Unutmayaq! İnternat məktəbləri uşaqları böyüdür, amma onlara ailə olmur. Ailə istiliyini isə yalnız biz cəmiyyət olaraq verə bilərik.

**Nərmin Əlirza**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

# GÖZLƏR QƏLBİN AYNASIDIR

"Gözlər qəlbin aynasıdır" ifadəsi insanın daxili aləminin, duyğularının, deyə bilmədiyi sözlərin gözlərlə ifadə olunması deməkdir. Həqiqəti ifadə etmək üçün ən yaxşı vasitədir gözlər... İnsanın ruhuna toxunan da, onu incidən də elə gözlərdir. Gözlər sadəcə baxış deyil... Elə məhz "Romeo və Cülyetta" əsərində gözlər sevginin mənbəyi kimi, "Leyli və Məcnun" əsərində Leylinin gözləri Məcnunun sevgisini oyandıran vasitə kimi göstərilmişdir. "Mona Liza" əsəri də bu əsərlərdən geri qalmır, əsərin ən sirli yerlərindən bir də "Gözlər" sayılır.



Gözlər duyğuların ifadəsidir ki, biz insanların göz bəbəklərinin böyüməsindən sevindiklərini, gözlərinin dolmasından və böyüməsindən qorxduğunu, göz bəbəyinin daralmasından nifrətini və narahatlığını, gözlərini tez-tez qaçırmasından, göz qırpmasından yalan danışdığını rahatca anlaya bilirik.

Bəs gözlər nə qədər düz deyir? Həmişə həqiqəti yansıdırmı?

Bəzən elə olur ki, bəzi insanlar hisslərini gözlərində yansıtmamağı bacarır. Bu isə qarşıdakı insanı fəlakətə sürükləyir, güvənini itirməyinə, hissizləşməyinə gətirib çıxarır. Gözlərə sahib çıxmaq lazımdır ki, qarşıdakı insanı incitməyək.

Susaraq hər şeyi izah edə bilirmi gözlər? Xeyr, insanlar susaraq qarşıdakı insanların onları anlamağını, başa düşməyini gözləyir. Məncə, elə səhv buradan başlayır, düşüncələrini gözlərinə tanıtmaq yerinə olan problemi qarşıdakı insanlara desələr, hər şey daha yaxşı ola bilər. Gözlər həqiqəti yansıtsa da, həmişə başa düşülən olmur.

**Nurtac İsmayılova**
**Jurnalistika ixtisası üzrə**
**I kurs tələbəsi**

# BÖYÜK QARDAŞ SƏNƏ BAXIR

## *(Corc Oruelin "1984" romanı haqqında)*

"Azadlıq köləlikdir, savaş barışdır, cahillik gücdür". Bu sözü real həyatda bir yerdə eşitsək, ya ciddiyə almarıq, ya da bunu deyən insanın psixologiyasında bir problemin olduğunu düşünərik. Fəqət "1984" kitabında yer alan bu söz həmin həyatda küçələrdə, binalarda yazılıb, radiolarda dilə gətirilib. Hətta bu söz oradakı insanlar tərəfindən heç də qəribə görünmür. Əksinə, bunu qəbul edə biləcək vəziyyətdədirlər. Bizə zülmət qaranlıq bir dünyayı göstərən Corc Oruelin məşhur kitabı "1984" distopiya janrının ən yaxşı nümunələrindən biridir. Eyni zamanda bir jurnalist olan Oruel yaşadığı dövrdə diqqət çəkən kommunizm, sosializm və faşizm kimi ideologiyaları da çox yaxşı şəkildə müşahidə edib və ortaya maraqlı və düşündürücü bir hekayə çıxarıb. Kitabın bu qədər tarixi dəyərə sahib olması bu əsəri gerçəkçi, həm də qorxunc hala gətirib. Bu kitabda keçən tükürpərdici siyasətin bir bənzərini günümüzdə belə görə bilirik. Oxuyanda insanı qorxudan, üzən, sorğuladan bu kitab böyük bir dərinliyə sahibdir.

Kitab bizə əvvəlcə bir distopiyanı tanıdaraq başlayır. Bu distopiyada tək partiya rejimi hökm sürməkdədir və diktatura anlayışı ilə idarə edilməkdədir. Hökumətdə olan bu partiya ağıla gələ biləcək hər formada insanlarını sıxır. Məsələn, binalara, küçələrə və hətta insanların evlərinə teleekran dediyimiz kameralar yerləşdirərək onların hər saniyə harada nə etdiklərini izləyirlər. Hər yerdə "Böyük Qardaş" deyilən, partiyanın başında olduğu nəzərdə tutulan insanın rəsmləri görünür və bu rəsmlərin altında "BÖYÜK QARDAŞ SƏNƏ BAXIR" yazısını oxuya bilirlər. Hətta bu rejimdə insanların təkcə nə danışdıqları deyil, nə düşündükləri belə görünür. Bu hökumət "düşüncə səhvi" anlayışını da çıxarmışdır. Bu səhv hökumətin fikirlərinə zidd düşüncələr ifadə edənləri cəzalandırmaq üzərinə hazırlanıb və bütün səhvlərin ən ağırı olaraq bilinir. Eyni zamanda bu distopiyada "yeni söyləm" adlı bir dil istifadə olunur. Bu dildə hökumətin istəmədiyi bəzi sözlər tədavüldən qaldırılıb... Bu dil xalqa açıq bir şəkildə yeni bir lüğət tərtib edib və bu lüğətdə yazılmayan sözləri gündəlik məişət həyatında işlətmək qəti qadağandır. Bu qədər basqı arasında baş qəhrəman Winston ilə tanış oluruq. Partyanın aşağı rütbəli bir üzvü olan bu obraz məcburən yaşamalı olduğu bu basqı rejimindən artıq usanmış və getdikcə hökumətin ona qoyduğu qanunları yıxmışdır. Eyni zamanda Winstonun gizli-gizli görüşdüyü Julie adlı qadınla yaxınlaşmasına, yüksək rütbəli Obrien tərəfindən tələyə düşürülməsinə və yaşadığı xəyanətlər, işgəncələr nəticəsində getdikcə sahib olduğu dirənmə ruhunu itirməsinə şahid oluruq. Bu kitabda üstündə durmalı olduğumuz ilk hissə bu rejimin ustalıqla həyata keçirdiyi "propaqanda taktikası"dır.

Hələ kitabın əvvələrində oxuculara verilən bir sual var: buradakı insanlar niyə üsyan etmirlər?

Belə basqıcı bir hökumətə rəğmən bu insanların üsyan etməməsi, hətta tutqulu bir şəkildə hökumətin yanında yer almaları bizə bu hökumətin bilinən manipulyasiya taktikalarını ustalıqla həyata keçirdiyini göstərir. Beləliklə, suala bir daha nəzər salaq: insanları öz tərəfinə necə çəkə bilərsən?

Hökumətin isə bu suala cavabı: insanları qarşı tərəfə nifrət etdirərək!

Hökumət hər il "nifrət həftəsi" adı verilən bir seremoniya təşkil edir. Burada insanlar bir yerə toplaşaraq öz düşmənlərinə, spesifik olaraq düşmən tərəfin öndəri Goldsteinə qarşı öz nifrətlərini qusurlar. Eyni zamanda hökumət yeni düşmənlərini də elan edir. Hadisələr yalnız bununla da kifayətlənmir. Bu topluluqda insanlar düşmənlərinə nifrət qusmaqla bərabər, "böyük qardaş"a olan sevgilərini göstərirlər. Bu zaman Winston kimi hökuməti dəstəkləməyən və Goldsteinə qarşı nifrət bəsləməyən insanlar belə "axın psixologiyası" səbəbi ilə özünü bu davranışlara uyğunlaşmaqdan çəkindirə bilmir.

Oruelin bu kitabı yazmasına ilham verən SSRİ siyasəti idi. Kitabda görürük ki, bu hökumət Staline bənzər bir nifrət, digər sahələrdən də güclü bir propaqanda yerdir.

Hökumətin başındakı isim, "Böyük qardaş" deyilən gizli şəxs. Partiyanın lideri və propoqandanın ardındakı insan olsa da, əsər boyunca heç bir şəkildə görünmür. O, sadəcə şəkillərdə və ekranlarda var və heç bir şəkildə insan içində olmur. Mümkün qədər gizlənmiş vəziyyətdə və partiyanın həyata keçirdiyi propoqandaya başdan- sona nəzər salsaq, olduqca təsirli bir metoda sahip olduqlarını görərik. Fəqət bu propoqanda taktikası Winston kimi obrazların tamamilə partiyanın tərkibinə daxil olmasının qarşısını ala bilmir. Partiyanın fərqli üzvlərini ortaya çıxarmalı olur. Bu hökumətdə düşünmə səhvi adlı bir anlayış var və hökumətin qərarlarına qarşı bir düşüncəyə sahib olan insanlar ən ağır işgəncələrlə cəzalandırılır, amma bu hökumətin düşüncə suçundan daha hiyləgər bir metodu var. O metod xalqın düşünə bilmə imkanlarını azaltmaqdır və bunu da dil ilə həyata keçirirlər. Lüğətin tərtibi ilə partiyanın uyğunsuz hesab etdiyi sözləri istifadə etmək qadağan edilmişdir. Nəzər saldıqda istifadə etdiyimiz dil və o dilin daxilində olan sözlər bizim düşüncələrimiz üçün kritik bir dəyərə sahibdir. Çünki insan bir düşüncəni başqa düşüncəyə köçürəndə və hətta öz-özünə düşünəndə belə həmin sözlər ilə ifadə edir. Fəqət həmin fikri ifadə edəcək sözlərin istifadəsi qadağandırsa, həmin düşüncənin insan zehnində yer alması bir o qədər çətin bir prosesdir. Məsələn, diktator. Əgər həmin dildə bu söz və bu sözə bənzər bir neçə sözün işlənməsi qadağandırsa, insanın "Böyük qardaş bir diktator" olduğunu dərk etsə belə, bunu başqa insanlara ifadə edə bilməyəcəkdir. Hökumətin insanları öz tərəfinə çəkməsinin bir digər üsulu da budur ki, o "keçmiş manipulyasiya" anlayışına görə hərəkət edərək dövlətin əslində yaşadığı keçmişi silib onu elə dəyişir ki, xalq bu günün basqısını, sərt diktator rejimini bir lütf olaraq görür. Hökumət bir xəyal ürünü olan düşmənlər, qəhrəmanlar yaradaraq, keçmişi tamamilə dəyişdirərək bu günün insanlarını idarə etməyi bacarır. Buna nümunə olaraq 2+2=5 (SSRİ nin şüarı - 4 ilə etmək isədiyi bir hərbi planın 5 ilə həyata keçməsindən yaranıb) göstərə bilərik. Bütün bu məlumatları bir yerə toparlasaq, hökumət xalqın beynini yumaq üçün iki təməl faktordan istifadə edir; 1. Nifrət və düşmənliyi aşılayan propaqanda üsulu, 2. Yeni dili və yeni düşüncələri diktə edən beyin idarəçiliyi. Fəqət hökumət nə qədər çalışsa da, Winston kimi insanları öz tərəfinə çəkə bilmir və bu zamanda qəddar bir şəkildə yeni bir üsul irəli sürür; "qorxu faktoru".

Kitaba baxanda onu görürük ki, Tom Parsons obrazın da elə bir vəziyyətlə qarşılaşırıq ki, hökumət tərəfdarı bir insan öz yaxın dostunu, qohumunu, sirdaşını, yoldaşını, hökumət ziddiyyətlisi bir insanı sata bilmə xarakterinə sahibdir. Onu satan öz qızı olub. Kitabın ən sərt kulminasiya nöqtəsi Obrien in Winstonu həbs etməsindən başlayır və onun mübariz ruhunu qıra bilmədiyini görür.

Və hökumət bu qədər çırpınışdan, iztirabdan sonra baş qəhrəmanımızı istədiyi çərçivə daxilinə sala bilir. Artıq o da hökumətə nifrət etmir, əksinə, ona sevgi ilə bağlanıb və artıq onun üçün də 2+2=5...

**Fərasət Babazadə**
**Filologiya ixtisası üzrə II kurs tələbəsi**

# BİR AXTARIŞ HEKAYƏSİ...

## *(Herman Hessenin "Siddhartha" əsəri haqqında)*

(Mən kitabı ilk dəfə oxumağa başlayanda sıxıcı, mənasız, maraqsız olduğunu düşünmüşdüm. Amma kitaba başlayandan sonra mənə böyük bir dərs oldu ki, heç vaxt bir şeyə önyarğılı yanaşmamaq lazım imiş. Əsər məndə o qədər dərin hisslər, duyğular oyatdı ki... Kitaba başladıqdan sonra yazıçının dilinin mükəmməlliyi, axıcılığı o qədər gözəl idi ki, əsəri bir neçə saatda bitirdim. Əsərin məndə oyatdığı hisslər o qədər mükəmməl idi ki, sanki mən də əsərin içində bir yerlərdə Siddhartha ilə öz "Mən" imi axtarırdım. Əsərdə Herman Hessenin yaratdığı hər bir obraz ayrı-ayrılıqda mənə bir dərs verdi sanki...

Bir az da əsərin məzmunu haqqında danışmaq, öz fikirlərimi bildirmək istəyirəm. Əsərdə göstərilir ki, Siddharthanın yaşayışı özünü qane etmir. O, öz "Mən" ini tapmaq istəyir və o, Samanlara qoşulur, orada bir çox yeni məlumatlar, biliklər öyrənir. Amma yenə də bu onu qane etmir və oradan ayrılır. Hətta ayrılmadan bir az qabaq o dostuna deyir ki, "Özünü bədənindən kənarda hiss etmək nədir? Ya oruc, ya nəfəsi saxlama? Bunların hamısı "Mən" in qarşısında qorxudan başqa bir şey deyil. Ondan qaçmaq üçün bircə dəqiqəlik yalançı azadlığın təqibi, həyatın mənasızlığını azacıq müddətə unutmaqdan savayı heç nə. Vəssalam! Bu cür azadlığa çarvadarlar karvansarada bir fincan düyü arağı içməklə də çatırlar. Bircə fincan bəs edir ki, hansısa müddətə bütün ağrı-acılardan qurtulsunlar. Bu zaman "Mən" indən uzaqlaşan sərxoş çarvadar Siddhartha və Qovindanın axtardığını tapır. Dostum, bu, acı həqiqətdir".

Samanların yanından ayrıldıqdan sonra iki dost Hautamanın yanına getməyə qərar verirlər. Qovinda Hautamanın fikirləri ilə razılaşır, yanında qalmağa qərar verir. Beləcə, iki dostun yolları ayrılır. Çünki Siddhartha hələ də öz "Mən" ini tapmaq istəyirdi. O daha sonra bir qayıqçının köməyi ilə çayı keçir və şəhərə gedir. Orada Kəmalə adlı bir qadınla tanış olur, onunla yaşamağa başlayır. Ticarətlə məşğul olur, hər gün kef stollarına əyləşərək içir, kef sürür. Amma bir müddət sonra bütün bunlar ona saxta gəlir, düz etmədiyini düşünərək bütün hər şeyi buraxaraq oranı tərk edir. Yenidən öz "Mən" inin axtarışına çıxır. Daha sonra əvvəlcədən də rast gəldiyi qayıqçılə qarşılaşır. Yanına yerləşib onunla birlikdə yaşamağa başlayır. Burada da ən sevdiyim obrazlardan biri olan qayıqçı Vasudeva Siddharthanın həyatında mühüm rol oynayır. Onun həyatı dərk etməsində böyük rolu vardır.

Bu əsərdə mənim diqqətimi cəlb edən mövzular dostluq və ata-oğul münasibətidir.

İlk öncə dostluqdan danışmaq istəyirəm. Dostluğu təmsil edən obrazlar Qovinda və Siddharthadır. Mənim fikrimcə, onlar arasındakı dostluq o qədər güclü bağlarla bir-birinə bağlanıb ki, onlar fikir ayrılığı yaşasa da, zaman-zaman yolları ayrılsa da, uzun müddət bir-birlərini görməsələr də, onların yolları hər zaman bir-biri ilə kəsişir.

Digər mövzu ata-oğul münasibətidir. Əsərdə mənə təsir edən ən mühüm məsələ elə bu olmuşdur. Əsərdəki ata-oğul ilk öncə Siddhartha və atası, daha sonra isə Siddhartha və oğlu olmuşdur. Mən bu münasibət haqqında fikirlərimi demədən əvvəl sözə bir atalar sözü ilə başlamaq istəyirəm.

"Nə tökərsən aşına, o da çıxar qaşığına".

Hələ bu əsər haqqında fikirlərimi yazmağ başlamadan qabaq, daha əsəri oxuyanda belə ata-oğul münasibətini görəndə ağlıma ilk bu atalar sözü gəldi. Çünki əsərin əvvəlində Siddhartha atasının narahat olmasına baxmayaraq, yenə də öz yolundan dönmür. Onları eləcə qoyub Samanlara qatılır və daha sonra yaşadıqları nəticəsində onları heç yadına belə salmır. Və daha sonra illər keçir, Siddharthanın öz oğlu olur. Oğlu da tam atası kimi öz yolundan dönmür. Atası kimi o da atasını qoyub gedir.



Bir söz oxumuşdum: "İnsan yaşatdığını yaşamadan ölməzmiş".

Bu fikri mən Siddharthanın etdikləri ilə uyğunlaşdırıram. Siddhartha o zaman dərk edir ki, öz yaşatdıqlarını indi oğlu ona yaşadır. O, oturub düşünür və birdən ağlına yaddaşından sildiyi adam, yəni atası gəlir. Düşünür ki, mən də illər öncə Samanlara qoşulmaq üçün gedəndə atam da bu ağrı, əzabları çəkmişdi. O, övlad həsrəti ilə ölmüşdü və başa düşür ki, özünü də belə bir son gözləyir.

Əsərdə mənə təsir edən səhnə elə bu olmuşdur. O öz atasının köksünə övlad dağı çəkdi və illər sonra öz oğlu da onun köksünə həmin dağı çəkdi…Bir insan necə ailəsini, öz qanını, canını unuda bilər? Elə bir şeyə ürək necə dözər? Elə insanın öz "Mən" ini tapmağı üçün ailənin rolu yoxdur?

Əsərin sonunda belə bir məqam diqqətimi cəlb edir və mənim fikrimcə, bu cümləni elə əsərin baş qəhrəmanı Siddhartha öz fikri ilə aydın şəkildə ifadə edir. O fikir budur: "-Bu daşı görürsən? - O, daşı ovcunun içində fırladaraq dedi. - "Nə vaxtsa o, torpağa çevriləcək, sonra bitkiyə, ya da hansısa heyvana, ola bilsin insana. Əvvəllər deyərdim: Bu, olsa-olsa daşdır və heç bir qiyməti yoxdur, Mayya dünyasına aiddir, yalnız çevrilmələrin birində dönüb insan olanda ona hörmət edəcəm. Amma bu gün tam əksini düşünürəm: bu həm daş, həm heyvan, həm Allah, həm də Buddadır və onu nə vaxtsa hansısa birinə çevriləcəyinə görə sevmirəm, o artıq var və əbədidir. Bəli, o daşdır və mən onu daş olduğuna görə sevirəm…"

Əsəri oxuduqdan sonra əsərin baş qəhrəmanının adının əsasını daşıdığı Buddizm dinini də araşdırdım və Buddizmin hədəfinin həyatdakı acı, iztirab qaynaqlarını açıqlamaq və onları keçirməyin yollarını axtarmaqdır. Buddizmin qurucusunun adının Siddhartha olduğunu və Siddharthanın mənəvi anlayışa çatdığının qəbul edildiyini öyrəndim.

Əsər haqqında olan bu yazımı yenə Siddharthanın çox sevdiyim bir ifadəsi ilə bitirmək istəyirəm: "Biliyi ötürmək olar, müdrikliyi isə heç vaxt. Onu tapmaq olar, onunla yaşamaq olar, onu öz yelkəninə çevirə bilərsən, onunla möcüzələr yaradarsan, amma onu sözə çevirmək, kiməsə öyrətmək qeyri-mümkündür. Bu, məni hələ cavan yaşlarımda müəllimlərdən uzaq salan həqiqətdir. Qovinda, indi söyləyəcəyimi də yəqin zarafat kimi qəbul edəcəksən: istənilən həqiqətin tərsi də həqiqətdir! Belə ki, yalnız birtərəfli həqiqəti sözlə ifadə etmək mümkündür. Sözlə ifadə oluna biləcək hər bir fikiri isə vəhdətdən, birlikdən məhrumdur. Müqəddəs Hautama nəzəriyyəsilə bölüşərkən dünyadan danışarkən onu iki yerə: sansara və nirvanaya, yanılma və həqiqətə, iztirab və azadolmaya bölmək məcburiyyətində qalmışdı. Başqalarını öyrətmənin digər yolu qeyri-mümkündür. Qovinda, ətrafımızda olan hər şeyin iki üzü var. Heç vaxt insan və onun elədikləri yalnız sansaraya və ya nirvanaya məxsus olmur. Heç vaxt insan təkcə müqəddəs və ya günahkar olmur. Bu yalnız bizə elə gəlir, yanılaraq fikirləşirik ki, zaman gerçəklikdir".

Son olaraq demək istəyirəm ki, bu əsər məndə çox dərin duyğular oyatdı və məni düşünməyə vadar etdi. Görəsən, mən öz "Mən" imi tapa bilmişəm? Ya da heç öz "Mən" imi tapmaq üçün çalışmışam?

Hər kəsin bir gün öz "Mən" ini tapması diləyi ilə…

**Ebru Bayramova**
**Filologiya ixtisası üzrə II kurs tələbəsi**

# UŞAQLAR EVİ: "KİÇİK QƏLBLƏRİN BÖYÜK ARZULARI"

Bir yer düşünün. Elə bir yer ki, orada bir-birindən fərqli həyat hekayələri olan kiçik uşaqlar özləri öz ailələrindən daha çox bir-birlərinə ailə olublar. Bəli, bura "Uşaqlar evi"dir. Biz – jurnalistika ixtisasında oxuyan tələbələr və müəllimlərimizin dəstəyi ilə bu uşaqları görməyə getdik. Mən inanmırdım ki, onlarla bu qədər yaxşı vaxt keçirə bilərik. Hətta vaxtın necə keçdiyini heç birimiz belə hiss etmədik. Onların gülümsəmələri üçün, az da olsa, həyatlarına rəng qatmaq üçün əlimizdən gələni etdik. Oyunlar oynadıq, şəkil çəkdik, hədiyyələr verdik, söhbət etdik və daha nələr. Uşaqların hamısının bir-birindən gözəl xəyalları var. Kimisi müəllim, kimisi aktyor, kimisi memar, kimisi həkim olmaq istəyir. Mən inanıram ki, onlar öz ixtisasları üzrə peşəkar, tanınmış olacaqlar, gələcəkləri gülümsəmələri qədər gözəl olacaq. Bəs valideynləri? Onlar necə olacaq? Düşünməmək əldə deyil, həqiqətən, insan bu qədər vicdansız ola bilərmi? Bu dünyada övlad sahibi ola bilməyən saysız insan, ailə varkən niyə məhz insanlar nankör olub, Allahın onlara bəxş etdiyi bu gözəl möcüzələrə nankor övladlarına sahib çıxa bilmir, yaxud öz rahatlıqları üçün onları atmağı gözə alırlar? Əlbəttə ki, bəzi uşaqlar valideynlərinin imkanları olmadığına görə, yaxud hər hansı qəza, xəstəlik nəticəsində onları itirdiklərinə görə oradadır. Amma hamısı elə deyil ki... Bunu da sizə xatırladım ki, heç kim öz ailəsini seçə bilmir, amma valideyn öz uşağının taleyinin necə olacağına demək olar ki, böyük təsir edir.



**Fidan Zamanova**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

# XOŞBƏXTLİK AXTARIŞINDA

Bəzən insan özünü fiziki cəhətdən yorğun hiss edir, amma çox zaman bu yorğunluğun fiziki deyil, daxili olduğunu anlamır. İçimizə atdığımız, üzərini örtüb unutmağa çalışdığımız duyğular zamanla bizi ruhən daha çox yorur. Biz ağrılarımızı təbəssümlərimizin arxasında gizlədib heç kimə göstərməməyə çalışırıq. Amma unutmayaq ki, bu hisslərdən qaçmaq, onlardan uzaqlaşmaq yerinə, onları yaşamalı, üzləşməliyik. Yorğun olsaq da, içimizdəki duyğularla mübarizə aparmalıyıq. Çox vaxt hiss etdiyimiz duyğulardan qaçmağa çalışırıq, onlardan uzaqlaşmaq istəyirik. Bəziləri bunu zəiflik kimi görür, amma həqiqət budur ki, insan yalnızca anlaşılmadığı zaman qaçar, yalnızca başa düşülmədiyi yerdə susar. Bəzən biz tənha, depresiv görünsək də, başqaları bunun səbəbini soruşmaq yerinə bizi daha çox yaralayır. Yalnız başqalarına empatiya göstərərək bu soyuq dünyada bir-birimizi tapmaq mümkün olacaq. İnsanlar çox vaxt xoşbəxtliyi başqalarında axtarır. Bəziləri dostları ilə, bəziləri isə yalnızca sevdiyi vəfalı heyvanı ilə tənhalıq içində özlərini tapır. Çox qəribədir ki, bəzən insanların verə bilmədiyi o dərin, səmimi sevgini, xoşbəxtliyi heyvanlar bizə verə bilir. Sanki bir balaca yaş gözlərimizdən süzüldükdə sevimli pişiyimiz yanımıza gəlib bircə baxışla deyir: "Mən buradayam, sənə dəstək oluram, güclü ol!" Bəli, bəzən bizə heç kəsin verə bilmədiyi xoşbəxtliyi heyvanlardan, ya da həzin bir musiqidən, bir rəsm əsərindən və ya yazdığımız şeir misrasından tapa bilərik. Əslində, xoşbəxt olmaq o qədər də çətin deyil. Bütün həyatımız, hər bir anımız, əlimizdədir. Bir rəsm əsəri çəkdiyimiz kimi, həyatımızı da biz çəkirik. Amma unutmayaq, əgər rəsmimizi həvəssiz və ümidsiz çəkəriksə, gözəl alınmaz. Həyatda da belədir: ümidsiz yaşamaq yerinə, özümüzü xoşbəxt edəcək şeyləri tapmalıyıq. Xoşbəxt olmaq istəyiriksə, başqalarından heç bir gözləntimiz olmamalıdır. Çünki hər insan səhv edəcək, qıracaq, tökəcək. Biz də bundan məyus olacağıq. Bütün günümüzü bu düşüncə ilə keçirə bilərik, amma bunun sonunda zamanımız qalmayacaq. Həyat çox qısadır, yaşımız irəlilədikcə o qırğınlar, incitmələr bizə mənasız gələcək, dəyərini itirəcək. Yalnız bizi yaşamağa vadar edən şeylər – uğurlarımız, hədəflərimiz, arzularımızdır. Xoşbəxtlik isə aynadır. Biz o aynada özümüzü necə görsək, dünya da bizi elə görəcək. Əgər həyatın sadə gözəlliklərindən – kiçik anlardan xoşbəxt ola biliriksə, deməli, biz dünyanın ən xoşbəxt insanlarıyıq. Xoşbəxtliyin başqa bir sirri də bağışlamaqdır. Keçmişdə bizi yoran hər bir şeyi bağışlamaq. Unutmaq başqa bir şeydir, çünki heç bir insan haqsızlığı unutmur. Amma kin tutmaq, ağrıları içində saxlamaq bizi zəiflədir. Bağışlamaq isə böyüklükdür, daxili azadlıqdır. Birini bağışlamaqla biz özümüzü də bağışlayırıq. Bu, həyatımıza dərin bir sülh gətirir.



**Duyqu İbrahimli**
**Jurnalistika ixtisası üzrə II kurs tələbəsi**

## Qanlı Gecədən Şəfəqə Doğru




Xocalı... Bura bir zamanlar Azərbaycanın gözəl və strateji əhəmiyyətli şəhərlərindən biri idi. Lakin 1992-ci ilin fevralında bu ad sadəcə bir şəhərin adı olmaqdan çıxdı – o, qanlı bir faciənin, misli görünməmiş vəhşiliyin simvoluna çevrildi. 25-26 fevral gecəsi Ermənistan silahlı qüvvələri, keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalıya hücum edərək dinc əhaliyə qarşı soyqırım törətdi. O gecə 613 insan – körpələr, qocalar, qadınlar, bütöv ailələr qətlə yetirildi. Şəhərin küçələri qanla boyandı, insanların yaşamaq ümidi bir gecədə məhv edildi. Xocalı sakinləri soyuq qışın ayazında, güllə yağışı altında ölümlə üz-üzə qaldılar. Onların tək günahı doğma torpaqlarında yaşamaq idi. Bu facə sadəcə bir xalqın deyil, bütün insanlığın vicdanında dərin iz buraxdı.

Ancaq Xocalı təkcə bir faciənin adı deyil, həm də xalqımızın sarsılmaz iradəsinin simvoludur. Həmin qara gecədə şəhid olanların ruhu bu gün azad göylərdə dolaşır, doğma torpaqlarına sanki pıçıltı ilə səslənir: "Bizim qanımız yerdə qalmadı...". İllər keçdi, Azərbaycan öz gücünü, birliyini bütün dünyaya sübut etdi. Xocalının qisası döyüş meydanında alındı, haqq-ədalət bərpa olundu. Bu gün Xocalıya baxışımız kədərdən çox ümidlə doludur.

**Zeynəb Seyidli**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

## Xocalı soyqırımı: Qanla yazılan tarix

Sözlər yetsəydi, kədəri izah edər, yaraları sarıyardıq. Amma bəzən susmaq ən ağır fəryaddır, çünki bəzi acılar ifadəyə sığmır, sözlərlə anlatmaq olmur. Bəzi yaralar zamanla deyil, heç vaxt sağalmır. Xocalı bizim qan yaddaşımız, itirilmiş günahsız həyatların sonsuz fəryadıdır.

1992-ci ilin fevralı. Ayın 25-dən 26-na keçən gecə qışın ayazı təkcə havaya deyil, insan talelərinə də çökdü. Xocalı şəhəri erməni silahlı birləşmələri tərəfindən işğal olundu. O gecə təkcə torpaq deyil, insanlıq da məhv edildi. Gecənin zülmətində körpələrin naləsi, anaların fəryadı, qocaların ümidsiz ahı əks-səda verdi.

Xocalı qan gölünə dönüşmüş bir şəhər idi. Qaçan insanların yolları kəsilmişdi, ümidləri buz kimi soyuqda donurdu. Diri-diri yandırılan körpələr, başı kəsilmiş qocalar, bədənləri tanınmaz hala salınmış qadınlar. Bu, sadəcə işğal deyildi, bütün insanlığın faciəsi idi.

Həmin gecə Xocalı sakini olan bir ananın fəryadı səssizlikdə itib getdi. O, övladını sinəsinə sıxaraq soyuq qarda can verdi. Bir ata son nəfəsinə qədər ailəsini qorumağa çalışdı, amma güllələr mərhəmət tanımırdı. Bir uşaq qorxudan gözlərini yumdu və bir daha açmadı. O gecə Xocalıda həyat sönmüşdü, ümid donmuşdu.

Zaman keçdikcə suallar artdı: O gecə ay niyə işıq səpmədi? Ulduzlar hara yox oldu? Bu şəhər niyə yalnızlığa tərk edildi? Hara baxsan, sadəcə qan, sadəcə fəlakət görünürdü. Küləklər ölümün qoxusunu daşıyır, şəhər xarabalığa dönürdü.




Bu qətliam təkcə Xocalıya deyil, bütün insanlığa vurulan yara oldu. O gecə yalnız 613 nəfər həyatını itirmədi, minlərlə insanın daxilində bir hiss söndü. Uşaqlığını itirən körpələr, doğmalarından məhrum olan qocalar, yurdundan didərgin düşən insanlar... Bu, bir xalqın ruhuna vurulan yara idi.

Xocalı faciəsi beynəlxalq aləmdə də dəhşətlə qarşılandı. Ancaq dünya ictimaiyyəti bu vəhşiliyə göz yumdu. Tarix boyu bir çox soyqırımlar baş verib, lakin Xocalı bəşəriyyətin ən qara səhifələrindən biri olaraq qalır. Ədalətin yerini tapması, bu faciənin unudulmaması üçün hər birimiz tarixi yaddaşımıza sahib çıxmalıyıq.

Bəziləri deyir: "Zaman hər şeyi unutdurur", amma Xocalı unudula bilməz! O, təkcə bir şəhərin deyil, bütöv bir millətin yaddaşıdır. Biz unutsaq, tarix təkrarlanacaq. Biz unutsaq, şəhidlərin ruhu narahat qalacaq. Xocalı haqqın və ədalətin bərqərar olması üçün daim xatırlanmalıdır.

***Nərmin Əlirza***
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## Mənəvi dünyama yolçuluq

Mən nə vaxtsa kim olduğumu həqiqətən anlamaq üçün dayanıb düşünmüşəmmi? Kənardakıları deyil, özümü müşahidə etmişəmmi? Həyatımızın gərgin axarında biz çox vaxt özümüzlə olan əlaqəni itiririk. Özümüzü unudub düşüncələrimizi və hislərimizi sual etmədən sadəcə rutinlərin içində itirik.

Özümü müşahidə etmək mənim üçün özümü daha yaxşı başa düşmək və həyatıma yön vermək üçün mühüm bir addımdır. Bu proses mənim üçün uzun bir yolun başlanğıcıdır və hər addımda özümü daha aydın görürəm.

Özümü müşahidəni ilk olaraq düşüncələrimə yönəlməklə başladım. Öz düşüncələrimi izlədikcə çox vaxt mənfi yanaşmalarımın fərqinə vardım. Bu düşüncələr məni passivləşdirir, irəli addım atmağa mane olurdu. Özümü kənardan izlədikcə gördüm ki, düşüncələrimə nəzarət etmək, onlara məhkum olmamaq mənim əlimdədir. Bu mərhələ mənə həyatda hər bir şeyin yalnız düşüncə ilə başladığını, onları dəyişdirərək gerçəkliyi dəyişdirə biləcəyimi öyrətdi.

Hislərimi müşahidə etdikcə onları özümə yük etdiyimi anladım. Hər dəfə emosiyaya qapıldığımda onu dərindən analiz edib mənim üçün nə mənə daşıdığını anlamağa çalışdım. Məsələn, bir hadisədə mənfi hislər yaşadıqda, dərhal bu hisləri nə üçün yaşadığımı soruşdum. Bu suallar mənə həmin hadisələrə daha obyektiv yanaşmağı və hislərimi idarə etməyi öyrətdi. Artıq mən onları məni idarə edən güc kimi deyil, mənə nəsə öyrədən bir mənbə kimi qəbul edirəm.

Müşahidə prosesində mən öz davranışlarımı da təhlil etməyə başladım. Fərqli vəziyyətlərdə niyə müəyyən şəkildə davrandığımı anlamağa çalışdıqca çox vaxt reaksiyalarımın keçmiş təcrübələrə əsaslandığını gördüm. Özümü müşahidə etmək məni impulsiv reaksiyalardan uzaqlaşdırdı, daha düşüncəli və məqsədyönlü davranmağa sövq etdi.

Bütün bunlar mənə daxili dialoqumu da analiz etməyin vacibliyini öyrətdi. Çox vaxt özümüzlə danışdığımız dillə ətraf mühitin bizə olan təsirlərini daşıyırıq. Özümü müşahidə prosesi özümlə olan dialoqumu daha pozitiv və motivasiyaedici bir səviyyəyə çatdırmağıma yardım etdi.

Beləliklə, özümü müşahidə etməklə kim olduğumu və kim olmaq istədiyimi anlamağa başladım. Bu proses mənim üçün sonsuz bir yolçuluqdur. Özümü daha yaxşı tanımaq, daha bilincli yaşamaq və hər gün bir az daha irəli getmək. Bəlkə də özümü müşahidə etmək mənim üçün yalnız bir başlanğıcdır, amma bu başlanğıc mənə daxili harmoniyanı və özümə olan sevgini bəxş etdi.

**Əziz özüm, səni sevirəm!**

**Gülpəri Bağırova**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

## Həyat Qatarı

Hər bir insanın həyata baxış bucağı fərqlidir. Bəziləri həyata müsbət, bəziləri isə sadəcə mənfi düşüncələrlə yanaşır. Əslində isə həyat tərəzinin barabər ölçülü qolları kimidir. Bu həyatda həm kədəri, həm də sevinci yaşamaq həyata ritm qatır. Sanki kardioqrafiyanın cizgiləri kimi rəqs edir. O cizgilər bir xətt olsa, tərpənməsə, insan həyatda olmaz. Amma insan hər zaman həyatdan istədikləri ilə yaşayır. Kədərsə kədər, sevincsə sevinc. Beləliklə, insan nə düşünürsə, bu onun həyatına çevrilir. Düşüncələrimiz həyatımızın rəngi kimidir. Bəzən insanlar həyatını axışına buraxaraq alın yazısı, qismət və s. kimi fikirlərə inanmaq istəyirlər. Axı belə deyil. Var olan hər kəs qədərin deyil, zehninin məhkumu olur. Düşüncələrimiz sözlərimizə, sözlərimiz hərəkətlərimizə, hərəkətlərimiz isə həyatımıza yansıyır. Həmçinin müsbət düşüncələr sağlam, uzunömürlü və xoşbəxt həyata işarədir. Aparılan araşdırmalar da optimist insanların daha yaxşı həyat sürdüyünü təsdiqləyir. Bunun da səbəbi çətinlikləri fürsət kimi dəyərləndirmələridir. Yəni xoşagəlməz bir hadisə ilə qarşılaşanda "Bundan da pisi ola bilər" - deyib həll yolunu axtarırlar. Elə həyat da məhz bunu tələb edir. Bir dəfə gəldiyimiz bu dünyaya kimisi 30, 40, 50, 60 və s., bəlkə də çox, bəlkə də, bu yerlər təkcə də az yaşayırlar. Mənalı və mənasız. Həyatın dəyəri uzun yaşamaqda deyil, yaxşı yaşamaqdadır. Çox eşitmişik: "Həyat öncə imtahan edir, sonra dərs verir". Düşüncələrimə görə də doğru edir.



İmtahanlarımız bizə oxuyacağımız dərsin mövzusudur. Mənalı həyat da öz əlimizdədir, mənasız da. Əsas həyatdan zövq almağı bacarmalıyıq. Çox zaman Həyat insanın qatarın sağ pəncərəsindən mənzərəyə baxanda sol pəncərəsindəki şəlaləni dağı və başqa bir çox gözəllikləri qaçırmaq kimidir. Məsələ anın dadını çıxarmaqdadır. Yaşadığın müddətcə, yaxşılıq et, dürüst ol, sev, sevil, özünü tap, sonsuz yaşa. Unutmayaq ki, sən öz həyat yolunda getməyə başladığın an yol sənə görünəcək. Yetər ki, ilk addımı sən at.

Həyat bir şahmat taxtası tək
İnsanları ikiyə bölür,
Ağlar və qaralar.
Ağlar sevinc, qaralar kədər ustası sanki.

**Zeynəb Seyidli**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

## İSTİ OTAQLARDA YARALI QƏLBLƏRİN SIĞINACAQ YERİ: UŞAQLAR EVİ

Hər uşaq həyatı nağıl kimi yaşamağa layiqdir. Ancaq uşaqlar evində böyüyən balaca qəlblər üçün bu nağıl çox vaxt qaranlıq səhifələrdən ibarətdir. Bəs niyə? Onların günahı nədir ki, isti ailə ocağından məhrum qalıblar, axı onları digər balacalardan ayıran xüsusiyyət nədir? Həyatın amansızlığı, bəzən də cəmiyyətin diqqət-sizliyində gizlidir, bəlkə də axtarılan cavab elə budur. Uşaqlar evi dedikdə, çoxlarının ağlına məsum gözlər, tənhalıq və soyuq divarlar arasında sərt qanunla böyüdülməyə məcbur qalmış balacalar gəlir. Amma, bəlkə də, bu yerlər təkcə uşaqların deyil, bizim cəmiyyət olaraq necə bir yanlış yol tutduğumuzun güz-güsüdür. Valideynlərinin məsuliyyətsizliyi, sosial ədalətsizlik, müharibələr və yoxsulluq – bunlar uşaqlar evinə gələn balacaların həyatını müəyyənləşdirən səbəblərdən yalnız bir neçəsidir. Uşaqlar evinə düşən uşaqların hər birinin hekayəsi fərqli olsa da, təəssüf ki, əksəriyyəti həyatlarının ən əsas hissəsini itirir: sevgi. Əslində, sevgi uşağın ruhunu qidalandıran, ona şəxsiyyət bəxş edən ən böyük ehtiyacdır. Amma bu uşaqlar bu sevgidən məhrum qalırlar, onlar, demək olar ki, bu hissi yalnız təxəyyüllərində canlandırırlar. Onların xəyalları başqalarının xatirələrində gördüklərindən ibarətdir – bir ata şəfqəti, bir ana qucağı, bir ailə süfrəsi.

Uşaqlar evindən çıxan bir gəncin etirafı bu vəziyyəti çox yaxşı izah edir:

"Ailə mənim üçün həmişə bir şəkil olub. Mən onun içində heç vaxt yer ala bilmədim. Hamı deyirdi ki, böyüyüb hər şeyi unudacaqsan, amma mən unutmadım. Çünki heç vaxt yaşamamışam".

Hər bir son yeni başlanğıc üçün çırpınan bir ümid işığıdır. Uşaqlar evində böyüyən balacalar bəlkə də bir həkim, mühəndis, məşhur bir ulduza çevrilə bilər. Təbii ki, bunun üçün onlara düzgün yol işığı göstərilsə. Uşaq olmağın hər anı dəyərlidir, hər gülüş isə itirilmiş bir uşaqlığın qaytarılmasıdır. Gəlin, bu kiçik dünyaların gələcəyini birlikdə quraq. Çünki hər bir uşaq dünyanı dəyişəcək bir xəyala sahibdir və biz sadəcə onlara inanmalıyıq.

**Günel Məmmədova**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

# “BAĞIRAN SƏSSİZLİK”

Hər birimizin həyatında müxtəlif çətinliklər var və bu, bizi bəzən məğlubiyyətə sürükləsə də, güclü qalmaq və mübarizə aparmaq bizim əlimizdədir. Həyatdakı çətinliklər müxtəlif formalarda qarşımıza çıxa bilir.

Bəzən şəxsi həyatımızda, bəzən işimizdə sosial və emosional cəhətdən çətinliklər yaşayırıq və bu çətinliklər bəzən o qədər böyüyüb bizə təsir edir ki, özümüzü itirəcək dərəcəyə gəlirik. Kimisi uzaqlaşmağı seçir hər kəsdən, hər şeydən. Kimisi acısını dibinə kimi yaşayıb, o çətinliyin içindən keçməyi seçir. Bəzən isə sadəcə susmaq və yaşadığın çətinlikləri, uğradığın haqsızlıqları içinə ataraq unutmaq istəyirsən.



Amma həyat bəzən səssiz qalmaqla yetinməyəcək qədər çətin olur. Çətinliklər qarşımıza çıxdıqda bəzən bağırmaq, qışqırmaq istəsək də, səssiz qalmaq məcburiyyətində qalırıq. Bu səssizlik bəzən qışqıran qədər güclü olur. "Bağıran səssizlik" məhz bu anları ifadə edir – qəlbimizin dərinliklərindəki səsi susdurmağa çalışdığımız anları.

Bu, insanın içində yaşadığı, amma başqalarına açıq şəkildə ifadə edə bilmədiyi duyğuları və düşüncələri təsvir edir. İçimizdə bəzən böyük narahatlıq, kədər və ya daxili ziddiyyətlər olur, amma bunu səssizcə, susaraq yaşayırıq. Yəni zahirən sakit görünürük, amma daxilən sanki bağırırıq. Bu vəziyyət özümüzü tənha, anlaşılmamış və daxili sıxıntı içində hiss etdiyimiz anları ifadə edir. Hər nə qədər sussaq da, bütün savaşı öz içimizdə veririk. Kənardan səssiz görünürük, amma başqalarına içimizdə yığılıb qalan duyğulardan bəhs etmirik. Susuruq, sadəcə susuruq.

Susmaq da səssizlik deyildir bəzən. Susmaq əsəbdir, xəyal qırıqlığıdır. Olduqca səs-küylüdür susmaq. Çünki həyat bəzən ədalətli olmur, xoş düşüncələrimizin əksini yaşadır bizə. Gözəl gedən hər şeyi alır bir anda bizdən. Bunları gözlənilmədən edir. Sən nə ilə qarşılaşdığını belə anlamırsan, necə bura gəldiyini dərk etmirsən. O an içində bir şeylər bağırır, amma yaşadıqların üçün susursan, nə edəcəyini bilmirsən əslində. Ancaq bunu bilirsən ki, alışacaqsan. Bu səni daha da güclü edəcək. Həyatın çətinlikləri qaçınılmazdır, amma bu çətinliklər qarşısında necə dayandığımız bizim gücümüzü müəyyən edir. Çətinliyi qəbul edib onun altında əzilmək deyil, onun üzərinə gedib sonuna kimi mübarizə aparmalıyıq. Çətinliklər qarşısında elastik olmalı, onun bir müddət sonra tamamilə bitəcəyinə inanmalıyıq. ”Bağıran səssizlik” içimizdəki gücü və mübarizəni simvollaşdırır. Çətinliklər qarşısında səssiz qalsaq da, içimizdə bağıran səssizlik bizi güclü edir.

Həyatdakı çətinliklər sizi məğlub etməsin. İçinizdəki gücə inanın və hər zaman güclü dayanın. Unutmayın ki, bağıran səssizliyin arxasında böyük bir güc yatmaqdadır.

**Pərvin Səfərzadə**
**Jurnalistika ixtisası üzrə II kurs tələbəsi**

# QANADSIZ MƏLƏKLƏR

Dünyanın ədalətsizliyi və ziddiyyətləri arasında elə insanlar var ki, onlar sanki mələklərdir – qanadları olmasa da, qəlblərindəki işıqla həyatımıza nur saçırlar. Onlar bizim yanımızda hər an var, amma bəzən onların fədakarlığını görmək üçün gözlərimizi açmağa ehtiyacımız olur.



Həyatın çətinliklərində itirdiyimiz güvən, ümidsizlik anlarında itələdiyimiz inam məhz bu qanadsız mələklərin sevgi dolu əllərində yenidən çiçəklənir. Bəli, analar – yorulmadan bizi böyüdən, hər nəfəsdə həyatımıza öz canlarından can qatan o böyük ürək sahibləridir. Onların şəfqəti, hər damla göz yaşı ilə ömürlərimizə sükutla dua kimi işlənir.

Dünyamızın sükutunda, hər daşın və ağacın arxasında möhtəşəm bir hekayə gizlidir. Bu hekayələrin bir çoxu görünməz qəhrəmanlara, göz önündə olmayan, lakin hər zaman ürəklərdə olan insanlara aiddir. Onları biz "qanadsız mələklər" adlandırırıq. Bu mələklərin qanadları yoxdur, amma onların ürəkləri uçmağı bilir.

Qanadsız mələklər bizə yalnız yardım əlini uzatmaqla kifayətlənmirlər, onlar həm də ümid işığını alovlandırırlar. Bəzən bir müəllim sinifdəki hər bir şagirdin gözündə gələcəyin xəyalını oxuyur və bu xəyalı reallığa çevirmək üçün yorulmadan çalışır. Bəzən bir həkim, öz sağlamlığını riskə ataraq, başqa bir insanın həyatını xilas etməyə çalışır. Bu insanların işi yalnız peşə deyil, bir ilahi missiyadır.

Bəlkə də, heç vaxt tanımadığımız bir kənd müəllimi dağ başında qarlı yolları keçərək uşaqların həyatına maarif işığı gətirir. Bəlkə də hər səhər sübh tezdən işə gedən fəhlə ailəsinə bir tikə çörək gətirərək fərqində olmadan mələkliyi yaşayır.

Qanadsız mələklər bizə öyrədir ki, sevgi və fədakarlıq görünməz qanadlardır. Hər birimiz bu mələklərdən ilham alaraq başqa birinin həyatında dəyişiklik edə bilərik. Bu dünyada kiçik bir yaxşılıq, bir parça ümid, bir az mehribanlıq bizi böyük mələk ordusunun bir hissəsinə çevirir.

Bəlkə də, mələk olmaq üçün qanadlara ehtiyac yoxdur. Yalnız ürəkdən gələn bir yaxşılıq, insanlıq və mərhəmət... Bax, bu, həqiqi qanadsız mələk olmaq deməkdir

Amma ən təsirli qanadsız mələklər bəzən tanımadığımız, adını belə bilmədiyimiz insanlardır, gecə yarısı küçədə ac bir uşağa çörək verən, ehtiyacı olan birinin əlindən tutan o xeyirxah ürəklərdir. Onların nə mükafata, nə də tanınmağa ehtiyacı var. Onlar fədakarlıq üçün yaşayar.

Həyat hər zaman ədalətli deyil. Amma qanadsız mələklərin varlığı bəşəriyyətin ümid işığını heç vaxt sönməyə qoymur. Onlar səssizdir, görünməzdir, amma hər yerdədir. Bizə yalnız bir az daha diqqətli baxmaq, ətrafımızdakı bu mələkləri tanımaq və onların işığını paylaşmaq qalır.

Qanadsız mələklər bu dünyanın unudulmaz qəhrəmanlarıdır.

**Səkinə Əhmədova**
**Jurnalistika ixtisası üzrə II kurs tələbəsi**

# "Dünyanın ən dəyərli xəzinələri"

Dünya hal-hazırda ədalətsizliklə sarsılır. Ümid işığı axtardığımız bu dünyada bəzi insan adlandırdıqlarımızın qəlbləri daşlaşdıqca daşlaşır. Bu qaranlıq dünyaya baxanda bir işıq gözə çarpır. Bu işıq balaca qəlbərdən gələn işıqdır. Saf, təmiz, şəffaf bir şüşə kimi həssas qəlblər... Bu qəlblərin sahibləri həyatdan gələn bütün zərbələri gülümsəyən üzləri ilə qarşılayırlar. Özünü müdafiə etməyin belə nə olduğunu bilməyən, balaca əlləri ilə qulaqlarını bağlayan, yeni başladıqları həyatın çətinliklərini tez anlamaq istəməyən, dünyanın necə bir yer olduğunu ən yaxınlarına baxanda asanlıqla başa düşən uşaqlar..



Uşaq nədir? Uşaq-dünyaya təmiz bir səhər kimi doğan, hər anını kəşf ilə yaşayan bir varlıqdır. O, hələ zəmanənin yükü ilə yüklənməmiş, ruhu saf və qəlbi açıq bir çiçək kimidir. Hər uşağın təbəssümü, həyatın ən təmiz və ən saf anıdır, zamanın donduğu andır.

Uşaq-gələcəyin ümididir, hər addımında dünya ilə tanış olur və hər gülümsəməsi ilə həyatın gözəlliyini təkrar kəşf edir. Bəs bu gülümsəmə onların ən təbii haqqı deyil? Heç bir günahları olmadığı halda üzlərindəki ən məsum gülüşlərini öz mənafeyi üçün qıranlar, bəlkə də, ən böyük günahı işləyirlər. Günahsız uşaqların üzündəki gülümsəməni qıranlar, saf ümidləri qaranlığa boğanlardır. Hər bir uşağın sadə baxışında həyatın həqiqi gözəlliyini görə bilmək mümkündür.

Onların gözlərindəki saf təbəssüm dünyanın ən dəyərli xəzinəsi kimidir. Uşaqların məsumluğu hər şeyin yaxşı olacağına inam yaradır, ürəkləri sakitləşdirir. Hər bir uşağın gülüşü dünyaya yeni bir ümid toxumu səpir.

Uşaqlar bu dünyada açmış rəngarəng çiçəklərdir. Bu təmiz ruhlu çiçəkləri soldurmamaq bizim vəzifəmizdir. Uşaqların məsumluğu dünyada ən qiymətli xəzinədir – təmizlik və səmimiyyətin ən saf nümunəsi.

**Aysu Fətəliyeva**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

# Keçdi payız...

**Ayın tarixini bilmirəm,**
**Amma yenə**
**könlümdəsən.**
**Qış gəlir...**
**Əllərim üşüyəcək**
**həsrətinlə**
**İsinmək istəyəcək**
**nəfəsinlə.**
**Ürəyimin ritmi pozulur,**
**Nəfəsin nəfəsim olur.**
**Sonra günlərdən yaz...**
**Baharın gözəlliyi ilə**
**Sənə sevgim**
**bütünləşəcək.**
**Çiçək açacaq solum**
**Sağım sən...**
**Yay və tüstü başımda**
**Biraz da həsrətli günəş**
**Daha çox isitəcək sənli**
**məni.**
**Mən sevmirəm.**
**Nə yaz, nə yay, payız, qış.**
**Bildiyim tək bir şey**
**Sənsən mənim 4 fəslim.**

# Qara gözlüm!

**Ömrüm alnımın açıq**
**qırışlarıdırsa,**
**Üzümdəki naxışların adı**
**sən.**
**Məsum baxışların**
**əllərimlə**
**Bölüşmədiyim**
**hədiyyəm.**
**Səcdə etdiyim hər**
**duama**
**Çörək, duz şahid olsun.**
**Saatı 7 günə bölək,**
**Sənsiz yuxularıma**
**məlhəm sürək.**
**Başımın tüstüsü çəkilsin**
**bədənimdən,**
**Qar bəyazı saçla**
**oyanım.**
**Sevdanla tumarlanım,**
**xoşallanım,**
**Səhra çiçəyinə dönüm**
**qalım.**
**Al yanaq çuxurunda**
**Öldür məni qoy oraya.**
**Məzarım cəhənnəm**
**olsun,**
**Nəfəsinsə, atəşim!**

**Firuzə Quliyeva**
**Filologiya ixtisası üzrə II kurs tələbəsi**

Baş redaktor:
Şəhla Şirəliyeva
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri
Universitet şəhərciyi
Telefon:
544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 369
Tiraj 300

Dizayner:
SAHİLƏ ABBASOVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya
Birliyində ofset üsulu ilə
çap olunmuşdur.